## ABŞ bu həftə Ukraynaya yeni hərbi yardım paketini açıqlayacaq



**ABŞ hökuməti bu həftə Ukraynaya yeni hərbi yardım paketini açıqlayacaq.**

Bu barədə Ağ Evin Milli Təhlükəsizlik Şurasının Strateji Kommunikasiyalar Direktoru Con Kirbi mətbuat konfransında bildirib. Xatırladaq ki, ABŞ hökuməti Ukraynaya hərbi yardım çərçivəsində növbəti 2,6 milyard dollarlıq yardım paketini açıqlamaq niyyətində olduğunu bildirmişdi.

Hərbi yardım paketinə müxtəlif döyüş sursatları, o cümlədən tank mərmiləri, tank əleyhinə raketlər, həmçinin hava hücumundan müdafiə radarları və yanacaq daşıyan maşınların da daxil olacağı qeyd olunmuşdu.

## Abşeron dairəvi dəmir yolu xəttində sərnişindaşıma 43 faiz artıb



**Son üç ay ərzində Abşeron dairəvi dəmir yolu xətti ilə 1,3 milyon sərnişin daşınıb ki, bu da keçən ilin eyni dövrünün göstəricisindən 43 % çoxdur.**

Bunu "Azərbaycan Dəmir Yolları" QSC-nin Strateji və Korporativ inkişaf idarəsinin rəisi Azad Hüseynov bildirib.

Onun sözlərinə görə, hazırda həmin marşrut üzrə gündəlik olaraq 25 minə yaxın sərnişin daşınır.


❒ № 56 (5817) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 4 aprel 2023-cü il (çərşənbə axşamı)





## Siqaret bahalaşdı

### Hər bir siqaretdə 10 qəpik artım var

**Azərbaycanda siqaretlərin qiyməti bahalaşıb. Bir çox mağaza və supermarketlər siqaretlərin qiymətini bahalaşdırıb.**

Bu barədə Trend-ə Bakıdakı mağazaların satıcıları məlumat verib.

Satıcılar bildirib ki, dünən səhərdən markasından asılı olmayaraq hər bir siqaret 10 qəpik bahalaşıb. Bəzi siqaretlər isə 20 qəpik bahalaşıb.

*Verilən məlumatlara əsasən, "Kent-4" 10 qəpik bahalaşaraq, 3.80-dən 3.90-a, "Winston" 3.70-dən 3.80, "Pall Mall" 2.70-dən 2.80 qəpiyə qalxıb.*



## Prezident Selçuk Bayraktarı qəbul edib

### İlham Əliyev "Baykar" məhsullarının Vətən müharibəsində oynadığı roldan danışıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib.**

Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdıraraq Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərilən qardaşlıq yardımına görə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidentinə minnətdarlığını bir daha ifadə etdi.

(səh.2)

## Türkiyədə "Togg" elektromobilinin ilk nümunəsi Ərdoğana təqdim olunub



**Türkiyənin yerli elektromobili "Togg"un ilki dövlət başçısı Rəcəb Tayyib Ərdoğana təhvil verilib.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə yerli media məlumat yayıb.

Ərdoğan "Togg"un bu gündən etibarən artıq vətəndaşlar tərəfindən də istifadə ediləcəyini bildirib.

# Ordumuz Şuşanın iki kəndinə nəzarəti bərpa edib

### Böyük və Kiçik Qaladərəsi kəndləri, eləcə də Turşsu kəndində hələ də ermənilər qalır



**Azərbaycan Ordusu Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Şuşanın iki kəndinə nəzarəti bərpa edib. Bu barədə videogörüntülər də yayılıb.**

Məlumatı Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Eyvazov "Şərq"ə təsdiqləyib.

Qeyd edək ki, həmin yerlər Şuşa rayonunun Allahqulular və Zamanpəyəsi kəndləridir. Ermənilər həmin kəndləri dağıntılara məruz qoyublar.

Xatırladaq ki, martın 25-də Müdafiə Nazirliyi məlumat yayıb ki, Laçın yolunun şimalındakı torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən silah-sursat daşımaqla vəziyyətin gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən lokal zəruri nəzarət tədbirləri həyata keçirilib.

(səh.3)

# Terror aktı ilə bağlı 6 nəfər saxlanıldı

### Fazil Mustafaya qarşı törədilən sui-qəsdlə bağlı araşdırmalar aparılır



**Millət vəkili Fazil Mustafaya qarşı törədilən sui-qəsdlə bağlı bir neçə nəfər müəyyən edilərək saxlanılıb. Cinayət işi üzrə 6 nəfərin saxlanıldığı və digər şəxslərlə bağlı araşdırmaların aparıldığı bildirilib.**

Deputata sui-qəsd cəhdinin təşkilatçı və iştirakçılarından bəzilərinin adları ictimaiyyətə açıqlanıb və fotoları yayılıb. Qeyd edilib ki, sui-qəsdin təşkilatçısı Azər Səricanovdur. 1976-cı ildə Salyan rayonunda anadan olan A.Səricanov 11 dəfə İrana səfər edib.

(səh.3)



## Abbas Musəvi XİN-ə çağırılıb

### Azərbaycan İrana cavab notası verib

**İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin Xarici İşlər Nazirliyinə ünvanlanmış qeyd edilən notası 3 aprel tarixində daxil olub.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə yerli medianın "İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinə istinadən, Azərbaycan mediasında İran əleyhinə yayımların və məqalələrin qarşısının alınması məqsədilə müvafiq tədbirlər görülməsi üçün İran tərəfindən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə nota təqdim edildiyi bildirilir.

(səh.2)

## Ölən yoxdur

### 13 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 13 yeni yoluxma faktı qeydə alınıb, 22 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19-dan ölüm halı qeydə alınmayıb.

Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə vaksin vurulmayıb.

Bu barədə "Şərq"-ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Vurulan vaksinlərin ümumi sayı 13 955 588, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 407 483, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 880 065, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 3 402 075, pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 265 965 nəfər təşkil edir.

## Laçın istiqamətindən gələn 3 yük maşını Xankəndiyə gedib



**Laçın-Xankəndi yolundan Rusiya sülhməramlı kontingentinə (RSK) məxsus avtomobillərin maneəsiz keçidinə növbəti dəfə şərait yaradılıb.**

APA-nın Şuşaya ezam olunan müxbiri xəbər verir ki, RSK-ya məxsus avtomobillərin maneəsiz keçidinə şərait yaradılıb.

Laçın istiqamətindən gələn 3 yük maşını Xankəndiyə gedib.



## "Erməni təxribatları sülhə əngəl yaradır"

Amerikalı politoloq: "Qarabağda silahların daşınmasında rus sülhməramlılarının da rolu var"

(səh.6)



## Zelenski anons verdi

Ukrayna əks-hücuma və torpaqların azad edilməsinə hazırlaşır

(səh.4)

# Azərbaycan-İtaliya münasibətləri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir

## Prezident İlham Əliyev İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellini qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini deyərək, bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı və cari ilin əvvəlindən indiyədək, İtaliyanın 3 nazirinin, həmçinin bu gün nazir müavininin ölkəmizə səfərinin əlaqələrimizin çox yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini qeyd edərək, əlaqələrimizin böyük hissəsinin energetika sahəsi ilə bağlı olduğunu dedi, hazırda Avropanın enerji təhlükəsizliyi istiqamətində atılan addımların Azərbaycan-İtaliya əməkdaşlığını daha da gücləndirdiyini vurğuladı.

Dövlətimizin başçısı, eyni zamanda, İtaliyanın Azərbaycanın birinci ticarət tərəfdaşı olduğunu xatırladaraq, ticarət dövriyyəsinin əsas hissəsinin Azərbaycanın neft-qaz ixracını təşkil etdiyini dedi və bu baxımdan əməkdaşlığımızın strukturunun genişləndirilməsi ilə bağlı əlavə addımların atılmasının zəruriliyini qeyd etdi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi haqqında məlumat verərək ölkəmizin İkinci Qarabağ müharibəsindən dərhal sonra Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı təkliflərlə çıxış etdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Edmondo Çiriellinin ölkəmizə səfərinin məhsuldar olacağına əminliyini bildirdi.

Azərbaycan-İtaliya əlaqələrinin minilliklərlə yaşı olduğunu qeyd edən Edmondo Çirielli münasibətlərimizin kökünün hətta antik dövrlərə gedib çatdığını vurğuladı. Azərbaycanın İtaliya üçün çox önəmli ölkə olduğunu deyən qonaq Cənubi Qafqazda sabitlik baxımından ölkəmizin strateji əhəmiyyətini qeyd etdi, Azərbaycanın regionda müstəqil və suveren siyasət apardığını vurğuladı. İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini siyasi əlaqələrlə yanaşı, iqtisadi sahədə əməkdaşlığın da xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi.



# Prezident Selçuk Bayraktarı qəbul edib

## İlham Əliyev "Baykar" məhsullarının Vətən müharibəsində oynadığı roldan danışıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib.**

Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdıraraq Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərilən qardaşlıq yardımına görə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidentinə minnətdarlığını bir daha ifadə etdi.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlara bir daha Allahdan rəhmət diləyərək, Azərbaycanın Türkiyəyə yardımını qardaşlıq borcu kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti bu yaxınlarda Ankarada Türkiyə Prezidenti ilə görüşünü və Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq, Türkiyə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi.

Prezident İlham Əliyev Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək, bu xüsusda "Baykar" şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğuladı və bu şirkətin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün digər sahələrdə olduğu kimi hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

# Abbas Musəvi XİN-ə çağırılıb

## Azərbaycan İrana cavab notası verib

**İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin Xarici İşlər Nazirliyinə ünvanlanmış qeyd edilən notası 3 aprel tarixində daxil olub.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə yerli medianın "İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinə istinadən, Azərbaycan mediasında İran əleyhinə yayımların və məqalələrin qarşısının alınması məqsədilə müvafiq tədbirlər görülməsi üçün İran tərəfindən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə nota təqdim edildiyi bildirilir. Bu xəbəri necə şərh edərdiz?" sualına cavab olaraq bildirib.

XİN rəsmisi deyib ki, qeyd edilən məsələ ilə əlaqədar eyni gündə İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb.




İran tərəfinin notasında Azərbaycan mediası ilə bağlı qeyd olunanların obyektivliyi əks etdirmədiyi vurğulanaraq, İran tərəfinə cavab notası, eləcə də İran mediasında Azərbaycan əleyhinə yayılmış bir sıra məqalələrin siyahısı təqdim olunub.

İranın ölkəmizdəki səfirinə bildirilib ki, İran mediasında mütəmadi olaraq Azərbaycan Respublikası, onun dövlət və hökumət rəsmiləri haqqında yayılan təhqir dolu, yalan, böhtan və qərəzli məlumatlar, eləcə də İranın tanınmış ictimai-siyasi xadimlərinin həqiqətdən uzaq bəyanat və çıxışları ölkələrimiz arasındakı münasibətlərə xələl gətirir və anlaşılmazlıqları daha da dərinləşdirir.

Bununla yanaşı, ölkələrimiz arasında münasibətlər dövründə yaranan anlaşılmazlıqların daim İran tərəfinin birtərəfli davranış və addımlarından qaynaqlandığı, Azərbaycan tərəfinin ardıcıl və xoş niyyətli addımlarına İran tərəfindən lazımi qarşılıq verilmədiyi qeyd olunub.

Görüş zamanı, İran mediasında Azərbaycan əleyhinə yalan və qərəzli məlumatların yayılmasının qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər görülməsinin zəruriliyi vurğulanıb.

# Azərbaycan qlobal reytinqdə 20 pillə yüksəlib

**Azərbaycan "Global Soft Power Index" (Qlobal "yumşaq güc" reytinqi) reytinqində nüfuz səviyyəsinə görə 20 pillə yüksəlib.**



Trend bu barədə bazar ertəsi "Global Soft Power Index 2023"-ə istinadən xəbər verir.

Azərbaycan reytinqdə ümumi 121 yerdən 57-ci yeri, Avropa dövlətləri arasında isə 29-cu yeri tutub.

ABŞ, Böyük Britaniya və Almaniya indeksin ilk üç pilləsində qərarlaşıb. Asiya ölkələri arasında Qlobal "yümşaq güc" reytinqində lider Yaponiya (ümumi reytinqdə 4-cü yer), Latın Amerikası ölkələri arasında Braziliya (31-ci yer) olub. Birləşmiş Ərəb Əmirlikləri isə 10-cu yerə yüksəlib (Yaxın Şərq və Şimali Afrika ölkələri arasında ən yüksək yer olub).

Qeyd edək ki, qlobal "yümşaq güc" indeksi ümumilikdə ölkələrin dünya arenasında iştirak, nüfuz və təsirin balanslaşdırılmış və tam qiymətləndirməsini əks etdirən geniş spektrə malik göstəriciləri özündə birləşdirir. Bunlara məşhurluq, nüfuz, təsir, "yumşaq güc"ün 8 əsas meyarı (biznes və ticarət, idarəetmə, beynəlxalq münasibətlər, mədəniyyət və irs, KİV və kommunikasiyalar, elm və təhsil, insanlar və dəyərlər, dayanıqlı gələcək) üzrə göstəricilər daxildir.

Qlobal "yumşaq güc" reytinqi brend qiymətləndirmə sahəsində konsaltinq şirkəti olan "Brand Finance" tərəfindən 121 dövlətdən ən azı 100 min nəfər respondent arasında keçirilən sorğu əsasında tərtib olunur.

# Qərb kəşfiyyatı Ermənistanda vəziyyətə nəzarət etmək istəyir

## Aİ-nin missiyası sülhdə maraqlı olsaydı, İrəvanın sabitliyi pozmaq cəhdlərinin qarşısını alardı



**Xarici işlər naziri Ceyhun Bayramov Avropa Xarici Fəaliyyət Xidmətinin Şərq Tərəfdaşlığı məsələləri üzrə xüsusi nümayəndəsi Dirk Şubeli ilə görüşüb.**

Postmünaqişə dövründə regionda mövcud vəziyyəti qonağın diqqətinə çatdıran C.Bayramov Ermənistanın öhdəliklərindən boyun qaçırdığını, davamlı hərbi-siyasi təxribatlar törətdiyini və bunların sülh quruculuğu prosesinə xələl gətirdiyini diqqətə çatdırıb. Ceyhun Bayramov son dövrlərdə Ermənistan tərəfindən törədilən təxribatların intensivləşməsinin Avropa İttifaqının Ermənistandakı missiyasının mövcudluğu dövrünə təsadüf etməsinin narahatlıq doğurduğunu deyib. Nazir sözügedən missiyadan bəhanə kimi sui-istifadə edilməsinin yolverilməz olduğunu vurğulayıb. Xüsusi nümayəndə Dirk Şubel, son dövrlərdə nəqliyyat-kommunikasiya sahəsində yaranmış çağırışların Şərq-Qərb Dəhlizinin önəmini artırdığını diqqətə çatdıraraq, Azərbaycanın bölgədə nəqliyyat və kommunikasiyaların açılması istiqamətində fəaliyyətinin təqdirəlayiq olduğunu bildirib. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə bildirib ki, Ermənistanda yerləşdirilən və Aİ adından fəaliyyət göstərən müşahidəçilər keçmiş jandarm, polis və kəşfiyyat orqanlarının nümayəndələridir. Ekspertin fikrincə, Aİ missiyasının fəaliyyəti məlumat toplamaq, kəşfiyyat işləri aparmaq, qərar tutduqları yerlərin relyefini öyrənməkdən ibarətdir:** "Lakin reallığı görmək üçün Avropa İttifaqının Ermənistandakı missiyasının rəhbəri Markus Ritterin polis məmuru vəzifəsi ilə kamuflyaj edilmiş kəşfiyyatçı fəaliyyətinə nəzər yetirmək kifayət edir. Onun 2005-ci ildə Kosovoda, 2007-2008-ci illərdə Gürcüstanda, 2012-2013-cü illərdə Cənubi Sudanda və 2017-2019-cu illərdə Avropa İttifaqı Konsulluğun rəhbəri kimi Bağdaddakı fəaliyyətinə baxmaq yetərlidir. Deməli, "missiyanın" məqsədi Qərb kəşfiyyatının Ermənistandakı vəziyyətə nəzarət etmək istəyidir. Əgər iddia edildiyi kimi Aİ-nin missiyası sülhdə maraqlı olsaydı, İrəvanın sabitliyi pozmaq cəhdlərinin qarşısını alardı".

**İsmayıl Qocayev**




# Hər bareli 84 dollara satılır

## OPEK və tərəfdaşları neft bazarında qiymət stabilliyinə nail olmağa çalışırlar

**Bir sıra OPEK ölkələrinin hasilatın azaldılması ilə bağlı qərarları neftin dünya bazar qiymətində yenidən artımlara səbəb olub. Brent markalı neftin qiyməti 4 faizdən çox yüksələrək hər bareli 84 dollara satılır. Qeyd edək ki, ötən ayın ortalarında neftin bir barelinin qiyməti 74 dollaradək azalmışdı. Gündəlik hasilatın Səudiyyə Ərəbistanında 500 min barel, Rusiyada 500, İraqda 21, Küveytdə 128, Qazaxıstanda 78, Omanda 40, Əlcəzairdə 48 min barel azaldılması planlaşdırılır.**

Millət vəkili Vüqar Bayramov deyib ki, bununla OPEK və tərəfdaşları neft bazarında qiymət stabilliyinə nail olmağa çalışırlar. Deputatın sözlərinə görə, bu da artıq bazarda öz təsirlərini göstərməkdədir: "Azərbaycan üçün neftin dünya bazar qiyməti ölkəyə daxil olan valyutanın həcmi baxımdan əhəmiyyətlidir. Valyuta daxilolmalarının 80 faizi neft və neft məhsullarının payına düşür. Neftin qiymətinin yüksəlməsi enerji ixracatından daha çox gəlir əldə etməyə imkan verir. Ölkəyə daxil olan valyutanın həcmi eyni zamanda milli valyutanın məzənnəsinə təsir göstərən faktorlardan hesab olunur. Son qiymət artımlarına rəğmən, ümumi həcmi azaltmadan ixracatda və fiskal gəlirlərimizdə neftin payının azaldılması daha da prioritetləşməkdədir".

**İsmayıl**

# Yeni detallar ortaya çıxıb

## Fazil Mustafaya qarşı terrora görə saxlanılanlardan biri İrandan onu ölümlə hədələyən şəxsin qardaşıdır

**Deputat Fazil Mustafaya qarşı terror işində yeni detallar ortaya çıxıb.**



APA xəbər verir ki, məlum olub ki, DTX tərəfindən saxlanılanlar arasında İranda gizlənərək deputat Fazil Mustafaya onu terrorla öldürəcəyi barədə təhdid ünvanlamış Hüseynov Hüseyn Ramiz oğlunun qardaşı Hüseynov Həsən Ramiz oğlu da var.

Belə ki, Həsən Hüseynov Tural Məmmədova İran xüsusi xidmət orqanlarının tapşırıqlarının icrası müqabilində pul vəsaitlərinin göndərilməsini təşkil etmişdir (Tural Məmmədov xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycanda güdmə, tapşırılan ünvanların gizlin videoçəkilişlərini apardığına görə bir müddət əvvəl həbs edilib. Onun yaşadığı ünvandan hava məkanında obyektlərin hərəkət trayektoriyasını müşahidə edən, İrandan göndərilmiş xüsusi qurğu aşkar edilib).

Məlum olub ki, Həsən Hüseynov terrorçuluğa cəhd və dövlətə xəyanət əməllərinə görə İranda gizlənən İsgəndər Hüseynovun qardaşı oğludur.

# Terror aktı ilə bağlı 6 nəfər saxlanıldı

## Fazil Mustafaya qarşı törədilən sui-qəsdlə bağlı araşdırmalar aparılır

**Millət vəkili Fazil Mustafaya qarşı törədilən sui-qəsdlə bağlı bir neçə nəfər müəyyən edilərək saxlanılıb. Cinayət işi üzrə 6 nəfərin saxlanıldığı və digər şəxslərlə bağlı araşdırmaların aparıldığı bildirilib.**



*Saxlanılan şəxslərin İran xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb olunması danılmaz faktdır*

Deputata sui-qəsd cəhdinin təşkilatçı və iştirakçılarından bəzilərinin adları ictimaiyyətə açıqlanıb və fotoları yayılıb. Qeyd edilib ki, sui-qəsdin təşkilatçısı Azər Səricanovdur. 1976-cı ildə Salyan rayonunda anadan olan A.Səricanov 11 dəfə İrana səfər edib. 1993-2002-ci illərdə Qum şəhərində yaşamaqla orada təhsil alıb, təhsil aldığı müddətdə İranın xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb olunub. Azərbaycana qayıtdıqdan sonra İrandan aldığı maliyyə dəstəyi ilə xeyriyyəçilik adı altında ölkədə biznes fəaliyyəti qurub. İranın xüsusi xidmət orqanlarından aldığı sifariş əsasında məlum cinayətin törədilməsinin maliyyə və təşkilati işlərini təmin edib. Hadisə zamanı deputata atəş açan Səbuhi Şirinov adlı şəxs olub. O, dəfələrlə İrana səfər edib və döyüş hazırlığı keçib. Elşad Əsgərov və Emin Əliyarov adlı şəxslər isə sui-qəsdin təşkilində Azər Səricanova köməklik göstəriblər. Ekspertlərin fikrincə, deputata hücumda İran izi ən çox ehtimal edilən versiyadır və hadisənin motivlərindən tutmuş hədəfinə qədər əksər detal diqqəti Tehranın üzərinə yönəldir. Terror aktının bir nəfər tərəfindən yox, qrup şəklində təşkil edilməsi və qrupa bağlı digər şəxslər haqda araşdırmanın davam etməsi "İranın Azərbaycanda göstəriş gələndə silahlı hücumlar təşkil etmək potensialına malik dəstələrinin olduğu" fikrini də isbatlayır. Bu əməliyyat həmin dəstələrin ifşa edilməsi və neytrallaşdırılmasına da yeni imkanlar yaradacaq.

**Millət vəkili, sabiq təhlükəsizlik zabiti Arzu Nağıyev "Şərq"ə açıqlamasında bildirib ki, istintaqın əsas istiqamətləri bəllidir. Deputatın sözlərinə görə, bundan sonra Baş Prokurorluq, Dövlət Təhlükəsizlik Xidməti, hüquq-mühafizə orqanları qruplaşmanın tam ifşası üçün öz fəaliyyətini davam etdirəcəklər:** "Şübhə yox ki, sui-qəsdçilərin əlaqələri, onlara tapşırıq verənlər ətrafında əməliyyat fəaliyyəti davam etdiriləcək və bütün detallar ortaya qoyulacaq. Ən ciddi məsələ odur ki, əvvəlki versiyalar öz təsdiqini tapmaqdadır. Saxlanılan şəxslərin İran xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb olunması danılmaz faktdır".

**A.Nağıyev sui-qəsdçilərin saxlanılması ilə bağlı sosial şəbəkələrdə ortaya atılan əsassız iddialara da münasibət bildirib:** "Azərbaycanda DTX və digər hüquq-mühafizə orqanları heç bir şəxsə dini-irqi mənsubiyyətinə, dini görüşlərinə görə yanaşma sərgiləmir. Burada heç bir dini əqidədən söhbət getmir. Bu cür iddialar tamamilə əsassız və uydurmadır. Hüquq-mühafizə orqanlarının istintaq tədbirləri, əməliyyat fəaliyyəti real faktlara, sübutlara əsaslanır. Əgər sosial şəbəkələrdə kimlərsə araqarışdıranlıqla məşğuldursa, bunun da qarşısı alınmalıdır".

**İsmayıl Qocayev**



# Azərbaycan ilə Özbəkistan arasında informasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycanın bir sıra dövlət qurumları rəhbərlərinin daxil olduğu nümayəndə heyəti Özbəkistanda səfərdədir.**



Azərbaycan Respublikası Audiovizual Şuranın sədri İsmət Səttarovun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 3-də Daşkənd şəhərində Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin baş direktoru Asadjan Xocayev ilə görüşüb.

Görüşdə iki ölkə arasında informasiya təhlükəsizliyi, ikitərəfli əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub, media sahəsində əlaqələrin inkişafı məqsədilə konkret layihələrin reallaşdırılmasının vacibliyi diqqətə çatdırılıb. Özbəkistan tərəfi media və informasiya sahəsində, həmçinin feyk xəbərlərlə mübarizədə Azərbaycanın təcrübəsini öyrənməkdə maraqlı olduğunu bildirib. Danışıqlar əsnasında iki ölkənin aparıcı informasiya agentlikləri arasında xəbər və təcrübə mübadiləsinin gücləndirilməsinin vacibliyi önə çəkilib.

Görüş zamanı Azərbaycanın işğaldan azad olunan ərazilərində yüksək səviyyədə aparılan genişmiqyaslı quruculuq işlərinin dünyaya çatdırılmasının önəmli olduğu və bu istiqamətdə medianın böyük rol oynadığı vurğulanıb.

Nümayəndə heyəti səfər zamanı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzini ziyarət edib. Mərkəzin direktoru Samir Abbasov bildirib ki, Azərbaycan-Özbəkistan dostluq əlaqələrinin inkişafında mühüm əhəmiyyətə malik olan Mədəniyyət Mərkəzində Heydər Əliyev Muzeyi, Azərbaycan-Özbəkistan Dostluq Muzeyi, Azərbaycan Tarixi və Dövlətçiliyi Muzeyi və Xalça Muzeyi fəaliyyət göstərir.

# Ordumuz Şuşanın iki kəndinə nəzarəti bərpa edib

## Böyük və Kiçik Qaladərəsi kəndləri, eləcə də Turşsu kəndində hələ də ermənilər qalır



**Azərbaycan Ordusu Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Şuşanın iki kəndinə nəzarəti bərpa edib. Bu barədə videogörüntülər də yayılıb.**

Məlumatı Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Eyvazov "Şərq"ə təsdiqləyib.

Qeyd edək ki, həmin yerlər Şuşa rayonunun Allahqulular və Zamanpəyəsi kəndləridir Ermənilər həmin kəndləri dağıntılara məruz qoyublar.

Xatırladaq ki, martın 25-də Müdafiə Nazirliyi məlumat yayıb ki, Laçın yolunun şimalındakı torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən silah-sursat daşımaqla vəziyyətin gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən lokal zəruri nəzarət tədbirləri həyata keçirilib.

Nazirliyin martın 30-da yaydığı məlumatda da yeni yüksəkliklərin nəzarətə götürüldüyü bildirilib.

Belə ki, yeni Laçın yolunun istifadəyə verilməsi ilə əlaqədar Laçın rayonunun Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəklik, əsas və yardımçı yollar, eləcə də sərhədboyu geniş sahələr nəzarətə götürülüb.

**"Azərbaycan Ordusu son əməliyyatlarla Şuşanın Rusiya sülhməramlılarının nəzarəti altında qalan iki kəndinə, Allahqulular və Zamanpəyəsinə nəzarəti bərpa edib. Şuşanın Böyük və Kiçik Qaladərəsi kəndləri, eləcə də Turşsu kəndində hələ də ermənilər qalır".** Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, müharibədən sonra Laçın dəhlizinin köhnə marşrutu üzərində yerləşən bu kəndlər rusların nəzarət zonasında qaldı və ermənilərin müəyyən hissəsi oradan çıxmadı: "Məsələn, Turşsu kəndində 25 evdə 73 erməni yaşayır. Xankəndi-Xəlfəli-Turşsu yolunun ordumuz tərəfindən nəzarətə götürülməsindən sonra bu kəndlərin Xankəndidəki separatçılarla əlaqəsi bağlanıb. Turşsu kəndindəki qondarma icma rəhbəri Qaqik Nəsibyan deyir ki, Xankəndi ilə yolları tam bağlandığı üçün onlara ərzaq Gorusdan gəlir. Bundan belə nəticə çıxır ki, ya Ermənistanın Qarabağa hansısa gizli yolla keçid imkanı hələ də qalır, ya da ruslar ərzağı Gorusdan gətirirlər. Hər iki halda proses Azərbaycanın nəzarətindən kənarda baş verir. Və "ərzaq" adı altında Azərbaycan ərazisinə hansısa hərbi yüklərin daşındığı da istisna deyil və bunun belə olmadığına heç kim zəmanət verə bilməz".

**İsmayıl, Nihad**

# "Fazil Mustafa həqiqətləri dediyi üçün sui-qəsdə məruz qalıb"

## Novella Cəfəroğlu: "İranla əlbir olan, ona itaət edən və ondan pul alan insanlar başa düşməlidir ki, bunun axırı yoxdur"



**Millət vəkili Fazil Mustafaya qarşı törədilən sui-qəsd cəhdi ilə bağlı altı nəfər saxlanılıb.**

Cinayət işi üzrə 6 nəfərin saxlanıldığı və digər şəxslərlə bağlı araşdırmaların aparıldığı məlum olub.

Qeyd edək ki, martın 28-də saat 21:51-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında - Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Babək küçəsi ev 2 "Z" ünvanında "Kalaşnikov" konstruksiyalı avtomat silahından atəş açılaraq terror aktı törədilib.

Terror aktı nəticəsində Fazil Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 277 (dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etmə) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb.

**İranın Azərbaycana qərəzli mövqeyi ilə bağlı çox insanların çıxış etdiyini deyən hüquq müdafiəçisi Novella Cəfəroğlu "Şərq"ə vurğulayıb ki, Fazil Mustafa həqiqətləri dediyi üçün sui-qəsdə məruz qalıb:** "Bizlər heç kəsi təhqir etməmişik. Sadəcə, müsəlman dövlətinin din düşməni olan ermənilərə dəstək verməsini və orada yaşayan azərbaycanlılara qarşı pis davranmasını tənqid etmişik. Fazil Mustafa da bu tipli tənqidlər səsləndirib. Ümumiyyətlə, bütün dünya İranla bağlı tənqidi fikirlər səsləndirir və hətta oradakı hakimiyyətə qəzəb üfürür. İrana dəstək olan isə Ermənistandır".

**N.Cəfəroğlu söyləyib ki, İran islam dinini və onun mədəniyyətini gözdən salan bir dövlətdir:** "Biz sadəcə islami dəyərlərin gözdən salınmasına qarşı tənqidi fikirlər səsləndiririk. Ümumiyyətlə, biz öz xalqımızın gözünü açmalıyıq. İranla əlbir olan, ona itaət edən və ondan pul alan insanlar başa düşməlidir ki, bunun axırı yoxdur. Çünki İran tərəfi "Qurani-Kərim"də yazılan heç bir ayəyə əməl etmir. Buna görə də mən İranı islam dövləti hesab etmirəm. Fazil Mustafa da islamın gözdən salınmasına qarşı çıxışlar etdiyinə görə də sui-qəsdə məruz qalıb".

**Nihat Müzəffər**

# İran Bakıdakı səfirini vaxtından əvvəl dəyişir

## Azərbaycana yeni diplomat göndərilməsi o deməkdir ki, Tehranın ölkəmizlə bağlı başqa siyasəti var

**İran-Azərbaycan münasibətlərində ciddi gərginlik yaşandığı bir vaxtda İran hakimiyyəti Ermənistandakı səfirini - Abbas Bədəxşan Zühurini öz postundan geri çağırıb. Onun yerinə İranın Suriyadakı səfiri Mehdi Sübhani təyin olunub. Tehranın Azərbaycandakı səfirini də tezliklə əvəzləyəcəyi bildirilib. İndiki səfir Seyid Abbas Musəvi yaxın vaxtlarda Müctəba Dəmirçilu ilə əvəz ediləcək.**



Dəmirçilu Qazaxıstanda və Gürcüstanda diplomatik nümayəndəlikdə çalışıb və İranın Bakıdakı səfirliyinin ikinci katibi vəzifəsində işləyib. Ekspertlərə görə, İranın Ermənistan və Azərbaycandakı səfirlərinin dəyişdirilməsi qərarı diplomatik missiya müddətinin başa çatması ilə bağlı rotasiya deyil, konkret siyasi məqsədlər güdür. İranşünas Vardan Voskanyan da etiraf edib ki, Tehran Ermənistana münaqişə zonalarında təcrübəsi olan diplomatı səfir təyin edib: "Mehdi Sübhani hazırda İranın Suriyadakı səfirliyinə rəhbərlik edir. Həmçinin Pakistanda da işləyib. Buna görə onun Ermənistana səfir təyin edilməsi qərarı konkret mesaj idi. Tehran Cənubi Qafqaz regionunda öz siyasi kursunu daha ağlabatan və aydın şəkildə təbliğ etmək niyyətində olduğunu açıq şəkildə bildirir". Voskanyanın sözlərinə görə, İranın Azərbaycandakı gələcək səfiri Müctəba Dəmirçi də təcrübəli diplomatdır. O, həmçinin Tehranın Bakıdakı hazırkı səfiri Abbas Musəvidən o qədər də razı olmadığını əlavə edib.

**İran hökumətinin addımlarını "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Tehran rejimində Azərbaycana nifrət o qədər böyükdür ki, dövlət səviyyəsində ağıllarını itiriblər.** Professorun sözlərinə görə, İran müxtəlif vasitələrlə Azərbaycana təzyiq göstərməklə, təhdidlər yağdırmaqla dövlətimizi və xalqımızı qorxutmağa çalışır: "Cənubi Qafqaz ölkələrində səfirlərin dəyişdirilməsi İranın daxili işi olsa da, Suriyadakı səfirin Ermənistana gətirilməsinin arxasında bəlli məqsədlər var. Suriyadan İrəvana göndərilərn səfir Mehdi Sübhani çalışdığı bölgələrdə təxribatları yaxşı bacaran, bu işdə peşəkarlaşmış şəxsdir. Görünür, Tehran Azərbaycan və Ermənistanla bağlı məsələdə daha "ağır topları" meydana çıxarmağa məcbur qalıb. Düşünürəm ki, Sübhanı təsadüfən İrəvana gətirilmir və burada qarşıdakı dönəmə hazırlanmış bir siyasət var. İran açıq-aşkar Zəngəzur dəhlizinin açılmasının əleyhinədir. İran Azərbaycana səfir kimi öz istədiyi, yəni məsləhət bildiyi adamı göndərmək istəyə bilər. Amma Azərbaycan rəhbərliyi İranın təklif etdiyi şəxsin səfir kimi fəaliyyətinə icazə verməlidir. Əgər bəyan olunursa və adı hallanırsa, deməli, rəsmi Bakı Müctəba Dəmirçi barədə razılığını verib".

**C.Nuriyevin sözlərinə görə, İranın Azərbaycandakı səfirini vaxtından öncə dəyişmək istəməsi Tehranın siyasəti ilə bağlıdır:** "İstənilən səfir öz ölkəsinin maraqlarını güdür. Bəzən səfirlər fəaliyyət göstərdiyi ölkədə təmsil etdiyi dövlətin siyasətini həyata keçirməklə bərabər həm də müəyyən təxribatlarda iştirak edirlər. Səfirlərin əsas məqsədi çalışdığı dövlətin "zəif nöqtələrini" tapmaqdır. Lazımi məqamda həmin ölkəni haradan vuracaqlarının yollarını axtarırlar. Fəaliyyət müddəti tamam olmamış Azərbaycana yeni səfir göndərilməsi o deməkdir ki, İranın ölkəmizlə bağlı başqa siyasəti var. Nəzərə alaq ki, Azərbaycanda İranın "5-ci kalonu" kifayət qədərdir. Lakin inanmıram ki, yeni səfir Tehranın tapşırıqlarını icra etməyə nail olacaq. Baş vermiş proseslərdən sonra İran rejiminin Azərbaycanda hansısa "inqilabi mühit" yarada biləcəyinə ümid bəsləməsi sadəlövhlükdür. Kim gəlir-gəlsin, hansısa səfirin Azərbaycanda Tehranın lehinə uğurlu missiya icra edəcəyini ehtimal etmirəm".

**İsmayıl Qocayev**

# USAİD - Qərbin "5-ci kolonu" nə istəyir?

## "Bundan sonra heç bir Qərb təşkilatı Azərbaycana hansısa sahədə təzyiq edə bilməyəcək"




**ABŞ və Avropanın bir çox siyasi institutları, maliyyə fondları, hüquq-müdafiə təşkilatları Azərbaycanda uzun müddət fəaliyyət göstəriblər. Onların bəziləri fəaliyyətlərini hazırda da davam etdirirlər. Azərbaycan dövləti sağlam əməkdaşlıq prinsiplərinə və vətəndaş cəmiyyəti ənənələrinə sadiq qalaraq onların fəaliyyətinə daim imkan yaradıb.**

Lakin təcrübə göstərir ki, başda USAİD olmaqla ABŞ hökumətinə bağlı olan, eləcə də guya, müstəqil olan bu cür təşkilatlar vətəndaş cəmiyyətlərinin inkişafına töhfə verməkdən daha çox, siyasi proseslərə müdaxilə etmək, cəmiyyəti çaşdırmaq, ictimai-siyasi prosesləri manipulyasiya etmək, dövlətçilik prinsiplərini zəifləmək məqsədi güdürlər. Bir qayda olaraq, bu cür təşkilatlar Azərbaycan dövləti ilə müəyyən istiqamətlərdə əməkdaşlıq etsələr də, onların əsas fəaliyyət istiqaməti, özlərinə sadiq qeyri-hökumət təşkilatları, media qurumları yaratmaq, özünəməxsus şəbəkə formalaşdırmaq, radikal siyasi qüvvələrin anti-dövlət fəaliyyətinə dəstək vermək olub. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra USAİD, NED, Fridrix Nauman, Marşall, İREX və digər bu kimi qurumlar ölkəmizdə "5-ci kolon" formalaşdırmaq və ondan siyasi hakimiyyətə qarşı təzyiq vasitəsi kimi istifadə etmək, iradələrini diktə etmək, güzəştlərə nail olmaq üçün istifadə ediblər. 2000-ci ilin əvvəllərindən başlayaraq postsovet məkanında baş vermiş rəngli inqilablar, sonrakı dövrdə Yaxın Şərqi qarışdırmış siyasi kataklizmlər Qərbin formalaşdırdığı şəbəkələrin yaxından iştirakı ilə baş tutub. Məhz bu cür milli mənafeyə zidd fəaliyyətlərin qarşısını almaq məqsədilə Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının xaricdən maliyyələşməsinin qarşısı alındı. Həmin dövrdə QHT-lər vasitəsilə siyasi partiyaların maliyyələşdirilməsi adi praktikaya çevrilmişdi. Radikal müxalifətin zaman-zaman təsis etdiyi SİDSUH, Demblok, İctimai Palata, Milli Şura və digər bu kimi qurumlar məhz Qərbin dəstəyi sayəsində baş tuturdu. Lakin bu yolla hakimiyyətə qarşı müxalifətin birliyini təmin etmək, ondan güclü alternativ formalaşdırmaq cəhdləri baş tutmadı. Xalq süni şəkildə stimullaşdırılan bu prosesi və onun pozucu aktorlarını qəbul etmədi. Xarici qüvvələr Azərbaycanda onların buyruqları ilə hərəkət edən QHT və siyasi partiyalara Gürcüstan üzərindən pul çatdırmağa başladılar. Maliyyə vəsaitləri Gürcüstana göndərilir, oradan isə bəzi QHT nümayəndələrinin vasitəsilə Azərbaycana ötürülürdü. ABŞ-nin maliyyə yardımı adı altında qeyri-sabit, çevriliş və xaos üçün münbit şərait yaratmaq səyləri hələ də davam edir. Əvvəlcə Qərbin, sonra Rusiyanın, daha sonra isə İranın şəbəkələri darmadağın edildikdən sonra boş qalan yerin yenidən Qərb təsisatları tərəfindən doldurulmasına cəhdlər göstərilir. Bu fəaliyyətə indi USAİD və onun qatı ermənipərəst rəhbəri Samanta Pover başçılıq edir. USAİD ABŞ Mərkəzi Kəşfiyyat qurumunun alt qolu kimi yaradılıb. Hazırda yardım adı altında ayrı-ayrı ölkələrin daxili işlərinə aktiv şəkildə müdaxilə etməklə məşğuldur. Təsadüfi deyil ki, bu təşkilat 2023-2025-ci illərdə müxtəlif ölkələrdə dırnaqarası vətəndaş cəmiyyəti quruculuğuna 9,5 milyard dollar vəsait ayırıb. Bu yaxınlarda açıqlanmış "Demokratiya doktrinası" çərçivəsində bu vəsaitin müxtəlif ölkələrdə çevriliş planlarının reallaşdırılmasına yönəldiləcəyi şübhə doğurmur. Qeyd edək ki, USAİD 1991-ci ildən başlayaraq Azərbaycanda da fəaliyyət göstərir. Rəsmi missiyası zəif inkişaf etmiş, ehtiyacı olan ölkələrə dəstək göstərmək olan bu təşkilatın, o dövrün Azərbaycanında fəaliyyət göstərməsi anlaşılan idi. Lakin indi Azərbaycan özü bir çox dövlətə yardım edir və bir çox iri layihələr üçün donor funsksiyasını yerinə yetirmək gücündədir. O zaman USAİD-in ölkəmizdə fəaliyyətinə nə ehtiyac var? Təşkilat Azərbaycan kimi inkişaf etmiş dövlətə sərf etdiyi vəsaiti həqiqətən ehtiyac olan ölkələrə, məsələn, yardıma möhtac Ermənistana xərcləsə, daha məntiqli olar.

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında deyib ki, böyük və hegemon dövlətlərin istər dövlət, istərsə də onların yaratdığı təşkilatların fəaliyyətinə həmin dövlətlərin siyasəti nöqteyi-nəzərindən yanaşmaq lazımdır. Analitik vurğulayıb ki, bu siyasət nəticəsində fəaliyyət göstərdikləri dövlətlərdə onların maraq dairələrinə uyğun kontingent formalaşmasına müqayisəli yanaşmaq lazımdır:** "Bəzi ölkələrin bu tərz kontingentinə, həqiqətən də, "5-ci kolon" adı vermək olsa da, bəzi ölkələrin fəaliyyətinə bu adı verməyin doğru olmadığı qənaətindəyəm. Qərbin bu kimi təşkilatlarının hesab edirəm ki, "5-ci kolon" kimi kontingent formalaşdırması istəyi həmin ölkələrin inkişafına yönəlndirilə bilər. Amma bəzi ölkələrin bu kimi kontingentlərinə isə bunun əksini demək olar. Onların "5-ci kolon"ları həmin ölkə daxilində inkişafa xidmət etmir. Əksinə, dövlət təhlükədizliyinə birbaşa təhlükə yaradırlar. Məsələn, İran və Rusiya kimi. Təbii ki, Qərb təşkilatlarının içərisində də qərəzli, lobbilərə bağlı təşkilatlar var. Onların fəaliyyətini nəzarətdə saxlamaq lazımdır. Azərbaycanda fəaliyyət göstərən təşkilatların siyasi proseslərə müdaxilə cəhdlərini neytrallaşdırmaq üçün ölkə daxilində onların müdaxiləsini labüd edən istər siyasi, istərsə də digər onların maraq dairəsində olan sahələrdəki çatışmazlıqları aradan qaldırmaqla nail olmaq olar".

**A.Qasımov Qərblə İran və Rusiyanın "5-ci kolonlarını" müqayisə edib:** "İranın "5-ci kolon"unun fəaliyyətini gördük. Millət vəkilinə silahlı hücum təşkil etdiər. Rusiyanın "5-ci kolonu" ölkəni Rusiyaya birləşdirmək istəyirlər. Qərbin "5-ci kolonu" nə istəyir? Ölkədə olan çatışmazlıqları aradan qaldırmaq üçün Azərbaycana təzyiq edirlər. Bir sözlə, bizim inkişafımızı dolayı yolla istəyirlər. Burada başqa niyyətləri olan təşkilatlar da ola bilər. Azərbaycan olaraq konkret Qərbin təşkilatlarının qarşısını almağın yolu demokratik, dünyəvi, sivil dünyanın qəbul etdiyi islahatlar, tədbirlər görməkdir. Bundan sonra heç bir Qərb təşkilatı Azərbaycana hansısa sahədə təzyiq edə bilməyəcək".

**İsmayıl**




# Xudafərin körpüsünə kütləvi axın var

## Güneyli soydaşlarımızın bu etirazı Azərbaycana dəstəyin ifadəsidir



**Cənublu soydaşlarımızın Xudafərin körpüsünə axını artıq kütləvi xarakter alıb. Bununla bağlı teleqramda videogörüntülər yayılıb. Videolardan yolda tıxac yarandığı görünür. Qeyd olunub ki, soydaşlarımızın Xudafərinə axın etməsindən qorxuya düşən və qıcıqlanan Tehran rejimi yolun bir hissəsini hərəkətə bağlayıb, ona görə də yolda tıxac meydana gəlib.**

Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan "Şərq"ə bildirib ki, Tehran rejimi demək olar ki, son addımları ilə tamamilə hüquqi, siyasi sərhədləri aşır. Analitikə görə, rejim həm xalqa qarşı, həm də region və dünyaya qarşı davranışlar sərgiləyir: "Əsasən də milyonlarla soydaşımızın yaşadığı Güney Azərbaycanda böyük narahatlıq var. Bu, soydaşlarımızın illərdir azadlıqlarının pozulması və üzləşdikləri təzyiqlərlə bağlıdır. Məlumdur ki, İran sərhədlərimizdə silahlı qüvvələrini toplayır, Ermənistanı açıq şəkildə Azərbaycana qarşı revanşizmə sürükləyir. Şübhəsiz ki, bunu Güney Azərbaycanda yaşayan çoxmilyonlu soydaşlarımız da görür və özlərinə məxsus və mümkün formada rejimə etirazlarını ifadə edirlər. Tarixi məna kəsb edən Xudafərinə kütləvi səfərlər də bu etirazın və Azərbaycana dəstəyin ifadəsidir. Bunu görən rejim daha da qəddarlaşır. Ancaq görünən odur ki, daha sərt repressiyalara, həbslərə əl atsa da, xalqın əzmini sındıra bilməyəcəklər. Çünki xalq başa düşür ki, rejim Azərbaycana qarşı haqsız siyasət yürüdür".

**İsmayıl**



# Monitorinq ortaya çıxardı

## 11 çörək istehsalı müəssisəsində nöqsanlar aşkarlanıb

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi çörək istehsalı müəssisələrində keçirilən monitorinqlərin nəticəsini açıqlayıb. Monitorinqin nəticəsinə görə, 11 çörək istehsalı müəssisəsində nöqsanlar aşkarlanıb.**

Məlumata görə, cari dövr ərzində 103-ü yerli və 5-i idxal edilən məhsul olmaqla, ümumilikdə 108 nümunə götürülüb. Bunlardan 86-sı buğda, 22-si çovdar unundan hazırlanmış çörəklər olub. Nümunələrin sınaq nəticəsinə əsasən, 97 məhsul qida sahəsində normativ sənədlərin tələblərinə cavab verib. 11 müxtəlif istehsalçıya məxsus eyni sayda çörəklərdə isə uyğunsuzluqlar (kif və maya göbələkləri) aşkarlanıb. Aşkar olunmuş uyğunsuzluqlarla bağlı 11 müəssisədə keçirilmiş plandankənar yoxlamalar zamanı 2 müəssisədə yoxlamanın nəticəsi qənaətbəxş olub. 9 müəssisədə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların pozulması ilə bağlı 47 nöqsan aşkar edilib. Həmin nöqsanlarla bağlı inzibati protokol tərtib olunub və nöqsanların aradan qaldırılması üçün vaxt verilib. Sözügedən müəssisələrdən 3-də ciddi pozuntular aşkar edildiyinə görə məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilib. AQTA qeyd edir ki, laborator nəticələri uyğunsuz olan çörək məhsullarının istifadəyə yararlılığı qida təhlükəsizliyi baxımından məqsədəuyğun hesab edilmir. Qeyd edək ki, laborator nəticələri uyğunsuz olanlar çörək istehsalı müəssisələri həm paytaxtda, həm də regionlarda fəaliyyət göstərir.

***Standartlara uyğun müəssisələr çox azdır, çörək daha ağır çəkiyə malik olsun deyə, maya həddindən artıq miqdarda vurulur***

**Qida mütəxəssisi Ağa Salamov "Şərq"ə açıqlamasında bildirdi ki, çörək istehsalı müəssisələrində, çörək sexlərində daim nöqsanlar aşkarlanır, lakin istehsalçılar bundan heç bir nəticə çıxarmır:**

- Təəssüf ki, standartlara uyğun çörək istehsal edən müəssisələr çox azdır. Çörəyin hazırlanması üçün istifadə olunan əksər qatqılar standartlara uyğun deyil. Çörək daha ağır çəkiyə malik olsun deyə, maya həddindən artıq miqdarda vurulur. Bəzən çörəklər tam bişməmiş satışa çıxarılır. Keyfiyyətsiz, istifadə müddəti bitmiş qatqı maddələrindən istifadə edilir. Ona görə də çörəklərdə kif göbələkləri aşkarlanır. İstehsal prosesində çörəyin kimyəvi çirklənməyə məruz qalması da adi hal alıb. Ona görə də bəzən çörəklər sabun, ətir dadı verir, çörəklərdən xoşagəlməz qoxu gəlir. Problem təkcə çörəyin istehsalında deyil, daşınmada da problem var, rəflənmədə də. Çörəklər antisanitar vəziyyətdə daşınır, çörəyi satış məkanlarına təhvil verənlər xüsusi əlcəklərdən istifadə etmir, çörəklər daşınmada da çirklənməyə məruz qalır. Söhbət açıq halda satışa çıxarılanlardan gedir. Dəfələrlə bildirmişik ki, çörək, un məmulatları mağaza və marketlərdə xüsusi qoxusu olan mallardan kənarda olan rəflərə yerləşdirilməlidir. İyli, qoxulu məhsullarla təmas olmamalıdır. Amma yenə də eyni nöqsanlar təkrarlanır. Rəflərdə çörəklərin üzəri şəffaf örtüklə örtülməlidir. Marketlərdə havalandırma sistemində problem olduqda da çörək kimyəvi məhsulların ətrini canına çəkir. Marketlərin özündə kimyəvi, fiziki, bioloji çirklənmə halları baş verir. Bütün bu amillər nəticədə hər birimizin keyfiyyətsiz çörəklə təminatımıza yol açır.

**Məlahət Rzayeva**

# Peşəkarlar qabağa çəkilməlidir

## Kənd Təsərrüfatı Nazirliyinə bu sahə üzrə mütəxəssisləri cəlb etmək zəruridir




**Hazırda kənd təsərrüfatı naziri vəzifəsində çalışan Kərimov İnam İmdad oğlunun Ali Məhkəmənin hakimi təyin edilməsi təklif edilir. Milli Məclisə "Azərbaycan Respublikası Ali Məhkəməsi hakiminin təyin olunması haqqında" məsələ daxil olub. Məsələ dünən Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclasının gündəliyinə daxil edilib. Müzakirələrdən sonra məsələ Parlamentin plenar iclasına tövsiyə edilib.**

İnam Kərimovun Ali Məhkəməyə sədrliyi təsdiqlənəcəyi təqdirdə Kənd Təsərrüfatı naziri postuna yeni təyinat gözlənilir.

**İqtisadçı-ekspert Rauf Qarayev isə "Şərq"ə açıqlamasında deyib ki, 5 il əvvəl "ASAN xidmət"in sədri İnam Kərimovun kənd təsərrüfatı naziri təyin edilməsi menecerlik funksiyası daşıyırdı. Ətrafına ixtisaslı və peşəkar kadrları toplayan Kərimovun kənd təsərrüfatı sahəsindəki mövcud problemləri aradan qaldıra biləcəyi güman olunurdu:** "İnam Kərimovun fermerlərin qarşılaşdığı çətinlikləri, süni maneələri tezliklə aradan qaldıracağına və bu sahənin inkişafına təkan verəcək addımlar atacağına ümid edilirdi. Ancaq daha sonra sözügedən problemlərin nəinki azalması, əksinə, daha da artmasını müşahidə etdik. Bu zaman da İ.Kərimovun aqrar sektor üzrə mütəxəssis olmadığı ön plana çəkilərək, bu təyinat tənqid edildi. Sözün açığı, yeni təyin olunacaq kənd təsərrüfatı nazirinin ixtisaslı aqronom olub-olmaması bir o qədər də vacib deyil. Əsas məsələ konkret sahələr üzrə təyinatlıların ixtisaslı olması, rüşvət və korrupsiyaya bulaşmamasıdır".

R.Qarayevin sözlərinə görə, kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmış birinin nazir postuna təyin olunması peşəkarlıq baxımından müsbət haldır. Lakin həm adamın mütləq idarəetmə bacarığı olmalıdır: "İ.Kərimov yaxşı hüquqşünas və menecerlik bacarığına sahib bir rəhbər olsa da, onun kənd təsərrüfatı sahəsi ilə heç bir bağlılığı yox idi. İxtisas fərqli olsa da, ən azı bu sahədə müəyyən araşdırmaları, dərin bilgiləri olan bir kadr seçilməlidir. Ölkəmizdə belə bir tendensiya var ki, nazir təyin olunan şəxslər qısa müddətdə əvvəl çalışdığı sahədəki kadrları da öz yanına çağırır. Bu isə heç də effektiv bir islahat olmur. Az da olsa, iqtisadiyyat naziri Mikayıl Cabbarovda bu tendensiya özünü doğrultdu. İ.Kərimovun nazir təyin olunandan sonra Kənd Təsərrüfatı Nazirliyinə "ASAN Xidmət"-in əməkdaşlarını yerləşdirməsi istənilən nəticə vermədi. Heç olmasa, əvvəlki nazirin vaxtında bu qurumda az da olsa, iqtisadiyyata bağlı adamlar işləyirdi.

Yeni təyin olunacaq nazir ixtisaslı kadr olmasa da, mütləq bu sahədən olan kənd təsərrüfatını inkişaf etdirmək qabiliyyətində olan mütəxəssisləri cəlb etməlidir. Yoxsa ki, nazir gələn kimi özünə yaxın dost-tanışı ətrafına toplaması aqrar sektora ancaq zərbə vura bilər. Odur ki, Kənd Təsərrüfatı Nazirliyinə kim gəlsə, onu çətin bir vəzifə gözləyir. Kənd təsərrüfatı kimi mürəkkəb bir sahəni idarə etmək, burada qısa müddətdə uğurlu nəticələr qazanmaq, inkişafa nail olmaq o qədər də asan deyil. Aqrar sektorun hər bir sahəsinin inkişafı uzunmüddətli və ardıcıl zəhmət, düşünülmüş və islahatyönümlü siyasət tələb edir. Birincisi, doğru kadr seçimi həyata keçirilməlidir. Kənd təsərrüfatını güclü bilən insanlar bu gün kənarda qalıb. Nazirliyə kənd təsərrüfatı üzrə mütəxəssisləri cəlb etmək zəruridir. Həm də vəzifələrə sadəcə aqrar sahədə təhsili olan sıradan birilərini deyil, Azərbaycanda kənd təsərrüfatındakı mövcud vəziyyəti, problemləri dərindən bilən, onların həlli yolları barədə yenilikçi düşüncələrə malik, ölkənin iqtisadi çoğrafiyasından tam məlumatlı, bu sektordan böyük vəsait götürən dövlətlərin təcrübəsini öyrənmiş həqiqi mütəxəssisləri təyin etmək lazımdır. Çünki kənd təsərrüfatında mövcud vəziyyətin yaranmasının başlıca səbəbi nazirlikdə ixtisaslı kadrların sahə üzrə diletant şəxslərlə əvəzlənməsidir. Kənd Təsərrüfatı Nazirliyinə toplanmış qeyri-peşəkarlarla sahəni inkişaf etdirmək olmaz".

**Şəymən**

# Zelenski anons verdi

## Ukrayna əks-hücuma və torpaqların azad edilməsinə hazırlaşır



**Ukraynanın müdafiəçiləri əks-hücum və işğal olunmuş torpaqların azad edilməsinə hazırlıq görürlər. Əgər işğalçılar Ukraynanı tərk etməsələr, onları məhv edəcəyik.**

Ukrinform informasiya agentliyi xəbər verir ki, bu sözləri Ukrayna Prezidenti Volodimir Zelenski Yaqodnoe yaşayış məntəqəsinə səfəri zamanı jurnalistlərə müsahibəsində deyib. O qeyd edib: "Bizim cəbhədə irəliləyiş əldə etməmizə gəldikdə, mən çox konkret addımlara haçan hazır olmağımızla bağlı bir şey deyə bilmərəm". Ukraynanın dövlət başçısı əlavə edib ki, müdafiə qüvvələri döyüşdə güclü olmağa və öz torpaqlarını azad etməyə hazırlaşır.

Volodimir Zelenski vurğulayıb: "Mən konkret məsələlər barədə danışmaq istəmirəm, çünki biz Rusiya Federasiyasından olan terrorçulara öz metodlarımıza və işğaldan azad etmək üzrə atacağımız addımlara hazır olmağa imkan verə bilmərik. Lakin biz bunu edəcəyik və onlar bunu bilməlidir. İşğalçıların hələ işğal etdikləri ərazilərdən çıxmağa vaxtları var, əks halda, biz onları məhv edəcəyik".

# Akopyan Ermənistanın real simasını ifşa etdi

## Onun fərarilərin sayı ilə bağlı etirafı göstərdi ki, erməni cəmiyyəti Azərbaycanla müharibədən çəkinir, qorxur

**Ermənistan Baş naziri Nikol Paşinyanın xanımı Anna Akopyan açıq şəkildə etiraf edib ki, 44 günlük müharibənin gedişatında Ermənistan ordusunda 11 min nəfərdən artıq fərari olub.**



Akopyanın sözlərinə görə, reallıq budur ki, ermənilərin çoxu cəbhəyə getmədilər, səfərbərlik əmrinə uymadılar: ”Mən bir qadın olaraq özüm dəstə yaratmaq qərarına gəldim ki, kişilər buna böyük ehtiyac olduğunu görsünlər. Görsünlər ki, silahlı dəstə yaradıb öz vəzifələrini yerinə yetirməyə, dəstələr formalaşdırmağa gedənlər qadınlardır. Kişilərin buna reaksiyası yaxşı olmadı, kişilərimiz buna qoşulmadı”. Akopyanın sözləri çox açıq etiraf olmaqla yanaşı, eyni zamanda Ermənistan ordusundakı biabırçı vəziyyətin tərənnümüdür. Bütün bu reallıqlar fonunda 44 günlük Vətən müharibəsi dövründə bir nəfər də olsun, Azərbaycan əsgəri, hərbçisi fərarilik etmədi. Dövlət başçısı İlham Əliyev müharibə dövründə xalqa etdiyi müraciətlərində dəfələrlə qeyd etdi ki, Azərbaycan əsgəri sonadək döyüşür və fərariliklə bağlı heç bir fakt qeydə alınmayıb. Lakin göründüyü kimi Ermənistan ordusunda tamamilə fərqli vəziyyətdir. O zaman 10 min erməni əsgərinin fərarilik etməsi ilə bağlı məlumatlar var idi. Ancaq Anna Akopyanın son etirafı təsdiqlədi ki, bu rəqəm 11 mindən çox imiş. Erməni əsgəri döyüşdən qaçır, ağ bayraq qaldıraraq, təslim olurdu. Amma Azərbaycan əsgəri sona qədər döyüşürdü. Ermənistanda çağırışçılar müxtəlif üsullardan istifadə edib, hərbi xidmətdən yayınmağa çalışırdılar. Azərbaycanda tam əks proses gedirdi. Azərbaycan əsgəri hərbi komissarlıqların qarşısında növbələrə düzülürdülər ki, onları döyüşə göndərsinlər. Azərbaycan əsgəri nəyin uğrunda döyüşə getdiyinin, nəyə görə canını fəda etdiyinin və şəhidlik zirvəsinə ucaldığının fərqində idi.

**Politoloq Tural İsmayılov ”Şərq”ə bildirib ki, Anna Akopyan savadsızlıqdan Ermənistan cəmiyyətinin real simasını növbəti dəfə ifşa etmiş oldu.** Analitik deyib ki, əslində dəfələrlə vurğulanıb ki, Ermənistanda hazırda xidmət etmək üçün normal hərbçi tapa bilmirlər: ”Həqiqətən də, Ermənistan təkcə maddi-texniki cəhətdən, hərbi-idarəetmə baxımından deyil, həm də mənəvi-psixoloji durum baxımından da geridə qalıb. Ermənistan baş nazirinin xanımının 44 günlük Vətən müharibəsində Ermənistandakı fərarilərin sayı ilə bağlı açıqlaması Ermənistan cəmiyyətində ciddi rezonans doğurmalı idi. Lakin Ermənistan cəmiyyəti artıq siyasi institutlar tərəfindən tamamilə manqurtlaşdırıldığı üçün prosesə adekvat reaksiya verilmir. Əslində Akopyanın qadınlardan ibarət dəstə yaradaraq kişilərin kənarda qaldığını vurğulaması Ermənistan vətəndaşlarının Azərbaycan Ordusu qarşısına çıxma cəsarətinin olmadığını bir daha göstərmiş oldu. Həmçinin bu, acı bir reallığı ortaya qoydu ki, erməni cəmiyyəti Azərbaycanla müharibədən çəkinir, qorxur. Nikol Paşinyan və onun ətrafı zorla xalqı müharibə bəlasına sürükləməklə məşğuldur. Hesab edirəm ki, Akopyanın bilmədən etdiyi bu açıqlama Ermənistandakı real vəziyyəti özündə ehtiva edir. Burada mövcud situasiyanın da kifayət qədər gərginləşəcəyini ehtimal etmək olar. Çünki cəmiyyət daxilində hakimiyyətə yaxın şəxslərin bu cür açıqlamaları heç də birmənalı qarşılanmır”.

**İsmayıl Qocayev**

**Rusiya Prezidenti Vladimir Putin aprelin 27-də Türkiyəyə səfər edib türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla ”Akkuyu” atom elektrik stansiyasının birinci mərhələsinin açılışında iştirak etmək istəyir. Putindən əvvəl isə xarici işlər naziri Sergey Lavrov aprelin 6-7-də Türkiyəyə səfər edəcək.**



# Putin Ərdoğanla yola davam etmək istəyir

## Kılıçdaroğlunun prezident seçiləcəyi halda da Türkiyə-Rusiya tərəfdaşlığında qopma baş verməyəcək

”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Lavrov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə iki ölkə arasındakı əməkdaşlığının inkişafını, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini, həmçinin Ukraynadakı müharibə və Suriyadakı vəziyyəti müzakirə edəcək. Ekspertə görə, bu, böyük ehtimalla Mövlud Çavuşoğlunun nazir vəzifəsində Lavrovla son görüşü olacaq: ”Ərdoğan elan edib ki, prezident və parlament seçkisindən sonra yeni kabinet formalaşacaq. İndiki nazirlər isə millət vəkilliyi yarışına qatılacaqlar. Çavuşoğlu doğulduğu Antalyadan namizədliyini irəli sürəcək. Ərdoğan prezident seçkisində məğlub olarsa, bu, onun da dövlət başçısı kimi Putinlə son görüşü olacaq. Türkiyədə prezident seçkisi ”Akkuyu” atom elektrik stansiyasının açılışından 16 gün sonra gerçəkləşəcək. Putin Ərdoğanla yola davam etmək istəyir, onunla 20 ildən uzun müddətdə enişli-yoxuşlu yol qət edib, tərəfdaşının xarakterinə bələddir. Ancaq seçkidə fərqli nəticə olacağı, yəni Kamal Kılıçdaroğlunun prezident seçiləcəyi halda da Türkiyə-Rusiya tərəfdaşlığında qopma baş verməyəcək, sadəcə, Putinin yeni prezidentə və onun siyasətinə alışması vaxt tələb edəcək”.

**İsmayıl**

# "İranın Azərbaycan mediası ilə bağlı son notası qələtlərdən biridir"

## Rauf Arifoğlu: “Cənub qonşumuz Azərbaycan millət vəkilinə qarşı sui-qəsd həyata keçirmiş bir dövlətdir”



***"Millət vəkili Fazil Mustafaya qarşı olunan hücumun bütün izləri İrana aparır"***

**İran Azərbaycan Xarici İşlər Nazirliyinə etiraz notası təqdim edib. Bu barədə İran mediası məlumat yayıb. Bildirilib ki, etiraz notası Azərbaycan XİN-ə İranın Bakıdakı səfirliyi vasitəsilə çatdırılıb.**

Etiraz notasında İran Azərbaycanın bəzi media qurumlarının ”nalayiq və təhqiramiz hərəkətləri”nin davam etməsindən narahatlığını bildirib:

**”İran bu prosesə son qoyulmasını və düzəlişlərin edilməsini tələb edir. Bundan əlavə, İran medianın bu əxlaqsızlığının davam etməsinin iki ölkə arasında gələcək münasibətlərə mənfi və zərərli nəticələri barədə xəbərdarlıq edir”.**

Qeyd edək ki, İranın Azərbaycan mediasına qarşı bu cür ”əxlaqlı” iddiası və buna görə nota verməsi beynəlxalq diplomatiyaya qətiyyən uyğun deyil.

İranın Azərbaycana münasibətdə düşmən mövqeyi sərgilədiyini deyən ”Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlu ”Şərq”ə bildirib ki, Azərbaycan mediası etik çərçivələr daxilində rəsmi Tehranın düşmən mövqeyinə cavab verir: ”Çünki bizim ölkəmiz, dövlətimiz və bayrağımız hər şeydən öndə gəlir. İran dövlətimizi təhdid edir, bayrağımızı və varlığımızı görməzdən gəlir. Bu hala isə Azərbaycan mediasının reaksiya verməsi təbiidir. Hətta biz İran mediasına baxsaq görərik ki, onlar mənim, dövlət rəhbərliyi və ailə üzvlərinin ünvanına ağıza alınmaz təhqirlər səsləndirir. Yəni İran bütün münasibət qaydalarını pozur. Hətta Ermənistan mətbuatında belə Azərbaycandakı rəhbər şəxslərə yönəlik, bu cür nifrət və böhtan ritorikası yoxdur”.

*Baş yazar qeyd edib ki, cənub qonşumuzun son vaxtlar yürütdüyü siyasət düşmən siyasətindən başqa bir şey deyil:* ”Onlar hər fürsətdə Azərbaycana qarşı qərəzli mövqe sərgiləyirlər. Həmçinin müsəlman Azərbaycan əhalisinin mənafelərini deyil, islam düşməni olan Ermənistanın maraqlarını müdafiə edirlər. İranın bütün addımları qələtdir və onun Azərbaycan mediası ilə bağlı son notası da o qələtlərdən biridir. Ümumiyyətlə, İran Azərbaycana qarşı terror aktı törətmiş bir dövlətdir. Söhbət Tehrandakı səfirliyimizə olan terraktdan gedir. Bu gün ortaya çıxan faktlar isə sübut edir ki, cənub qonşumuz Azərbaycan millət vəkilinə qarşı sui-qəsd həyata keçirmiş bir dövlətdir. Millət vəkili Fazil Mustafaya qarşı olunan hücumun bütün izləri İrana aparır”.

**Nihat Müzəffər**

# Nərimanov müzakirələrində bir ana yanlışlıq var

## Yazıçı, siyasətçi Nərimanov şəxsiyyəti ayrı məsələdir, ”nərimanovçuluq” isə tamam ayrıdır



**Nəriman Nərimanovun Naxçıvan şəhərindəki büstünün götürülməsi ölkə ictimaiyyətində geniş müzakirələrə səbəb olub. Sosial şəbəkə istifadəçiləri, tanınmışlar, yazıçı və jurnalistlər arasında isə bu məsələ birmənalı qarşılanmayıb.**

Nəriman Nərimanovun siyasi fəaliyyətini və mövqeyini əsas gətirərək büstün götürülməsini doğru hesab edənlər də olub, buna qarşı çıxanlar da. Həmçinin büstün götürülməsi Nərimanovun Bakının mərkəzi yerlərindən birində yerləşən əzəmətli heykəlinin taleyini də şübhə altına qoyub. Bir çoxları zamanla Bakıdakı heykəlin də götürülmə ehtimalının yarandığını bildirib. Naxçıvan Şəhər İcra Hakimiyyətindən bildirilib ki, Nəriman Nərimanovun Naxçıvan şəhərindəki büstünün sökülməsi ilə bağlı məlumatlar həqiqəti əks etdirmir. Diqqətə çatdırılıb ki, aparılan təmir-tikinti işləri ilə bağlı Nəriman Nərimanovun Naxçıvan şəhərinin Nizami küçəsindəki Böyük bağ adlanan ərazidə yerləşən büstü müvəqqəti götürülüb. Yaxın günlərdə işlər başa çatdıqdan sonra büst yenidən həmin əraziyə qoyulacaq. Rəsmi açıqlamaya baxmayaraq, sosial şəbəkələrdə və mediada Nəriman Nərimanov müzakirələri bitməyib.

**Cümhuriyyət dövrünün araşdırmaçısı, ”Çapar” dərgisinin baş redaktoru Dilqəm Əhməd deyib ki, N.Nərimanov məsələsində aparılan müzakirələrdə ana yanlışlıq odur ki, yazıçı, siyasətçi Nərimanov şəxsiyyəti ayrı məsələdir, ”nərimanovçuluq” isə tamam ayrıdır. Tədqiqatçı-yazar bildirib ki, hər şəxsiyyətin bu və ya digər şəkildə müsbət, önəmli işləri olub:** ”Məsələn, Leninin çarı yıxması müsbət hadisədir, amma leninizm şər qüvvədir. Və ya Məhəmməd Əmin Rəsulzadə 1920-ci ildə oxuduğu mühazirədə ilhaqçıları məhv edib. Amma ilhaq tərəfdarı olan kimsənin adını çəkməyib. Çünki Ə.Ağaoğlu, Pişnamazzadə kimi şəxslər Osmanlı tərəfdarı idilər, amma Rəsulzadə şəxsləri yox, onların təmsil etdikləri ortaq düşüncəni tənqid edirdi. Rəsulzadə mühacirətdə ”şəfibəycilik” ifadəsini ona görə istifadə etmişdi ki, bu zehniyyət problemlidir. Baxmayaraq ki, Şəfi bəy onun din xadimi olan atasına da həqarət etmişdi. Amma kimsə Şəfi bəyin böyük xidmətlərini, işğal zamanı yaşadığı duyğuları inkar edə bilməz”.

*D.Əhməd vurğulayıb ki, Nərimanov şəxsiyyətinə dövlət onsuz da qiymət verir:* ”Şəhərin mərkəzində xatirə muzeyi də var. Muzeydən söz düşmüşkən, məsələn, Nərimanovu məzardan çıxarıb soruşsaq ki, Rəsulzadəyə sənin muzeyinin qonşuluğunda muzey aça bilərik? Birmənalı ”bəli” deyər. Amma nərimanovçuluq buna ”xeyr” deyir. Fərq budur. Bu gün ölkəmizdə M.Bağırovu sevənlər də çoxdur. Ən çox əfsanə onun haqqında yaradılıb. Hətta ”əşi o kim idi” deyib, reabilitasiya etmək istəyənlər də olub. Baxmayaraq ki, bu qədər ziyalının ölümünə qol çəkirsənsə, bir güllə öz başına sıxa bilərdin. Amma bağırovçuluq özlüyündə faciədir. Nərimanov həm ədəbi, həm də tarixi işləri ilə hər zaman tədqiq olunacaq, kitablar yazılacaq, filmlər çəkiləcək. Bu, normaldır və olmalıdır. Amma nərimanovçuluq Nərimanovun özünü belə fiziki məhv edən bir xətt oldu”.



Araşdırmaçı əlavə edib ki, Nərimanov müzakirələrində əsas dalan odur ki, 1920-1991-ci ilə nə ad vermək lazımdır məsələsində rəsmi razılaşma yoxdur: ”Bəziləri ilk 3 ilə yarımmüstəqil deyir və s. Üç respublika olduğunu iddia edənlər var və s. Yəni burada əsas problem Sovet Azərbaycanı problemidir. Azərbaycan SSR müstəqil dövlətdir, yoxsa faktiki vilayət idi? Dövlət müstəqilliyi ilə bağlı Konstitusiya Aktına görə, bu dövr işğal dövrüdür. Birinci maddədə yazılıb: ”1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Demokratik Respublikasını devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin”. Bu mövzuda ən son qərar 15 oktyabr 2021-də dövlət başçısı tərəfindən verilib. Maddə 1. Mayın 28-i Müstəqillik Günü elan edilsin. Maddə 2. Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin. Buradan aydın olur ki, 18 oktyabra qədər olan dövr müstəqilliyin olmadığı dövrdür”.

**İsmayıl Qocayev**

# Kim qazanacaq?

## Baxmut hazırda Rusiya-Ukrayna müharibəsinin ən kritik nöqtəsidir




**”Rusiya Baxmutda Ukraynanı bitirir. Baxmut administrasiyasının binası üzərində Rusiya və ”Vaqner”in bayrağı dalğalanır. Bu yaxşıdır”. Bunu rusiyalı politoloq Sergey Markov deyib. Ekspert bildirib ki, Rusiya nöqteyi-nəzərindən Baxmut uğrunda döyüşlərin əsas məqsədi şəhərin özünü ələ keçirmək deyil. Məqsəd Ukrayna Silahlı Qüvvələrinin hərbi resurslarını, onların hərbi texnikasını və işçi qüvvəsini maksimum dərəcədə məhv etmək üçün şəhər uğrunda döyüşlərdən istifadə etməkdir: ”Yəni Baxmut Ukrayna Silahlı Qüvvələri üçün tələ kimi işləyir.**

Ona görə də Baxmut uğrunda döyüşlərin effektivliyi onun azad edilmə sürətində deyil, Ukrayna Silahlı Qüvvələrinin Baxmutda məhv edilmiş külli miqdarda hərbi resurslarındadır”. ABŞ Müharibə Araşdırmaları İnstitutunun son hesabatında isə deyilib ki, Ukrayna qüvvələri Donetsk vilayətinin Baxmut şəhəri ətrafındakı mövqelərini bərpa edib. Qeyd edilib ki, Ukrayna Silahlı Qüvvələri şəhərin 7 kilometrliyində, cənub-qərb istiqamətində bir müddət əvvəl itirdikləri mövqeləri geri qaytarıblar ki, bu da şəhərin mühasirəyə alınması ehtimalını bir qədər də azaldıb. Bununla yanaşı, vurğulanıb ki, şəhərin daxilindəki ”Vaqner” qüvvələri də irəliləyişə nail ola biliblər və hazırda şəhərin mərkəzindəki administrasiya binasından bir neçə kvartal aralıda mövqe tutublar. Ancaq buna baxmayaraq, Baxmutun qərb hissəsi Ukrayna Ordusunun tam nəzarətindədir və şəhəri mühasirəyə almaq cəhdləri uğursuzluqla nəticələnir. Qeyd edək ki, ”Vaqner”in başçısı Yevgeni Priqojin də Ukrayna birləşmələrinin Baxmutu tərk etmək fikrində olduğuna dair heç bir əlamət görmədiyini və şəhəri mühasirəyə almağın çətin olduğunu bildirib. Əvəzində Ukrayna Quru Qoşunları komandanı general Aleksandr Sırski dünən deyib ki, işğalçı ordunun Baxmut ətrafında getdikcə daha az canlı qüvvəsi və vaxtı qalır.

***"Həm Rusiya, həm də Ukrayna tərəfi üçün strateji önəmə sahibdir"***

**Politoloq Turan Rzayev ”Şərq”ə deyib ki, Ukrayna tərəfi təsdiqləməsə də, Rusiya silahlı bölmələrinin Baxmutun mərkəzini ələ keçirməsi mümkündür. Onun sözlərinə görə, Baxmut hazırda Rusiya-Ukrayna müharibəsinin ən kritik nöqtəsidir:** ”Həm Rusiya, həm də Ukrayna tərəfi üçün strateji önəmə sahibdir. Bundan başqa, Baxmut psixoloji üstünlük baxımından da vacibdir. Belə ki, iki tərəf də müharibə gedişində ciddi itkilər verib və müsbət xəbər eşitməyə ehtiyacı var. Xüsusilə Baxmutun ələ keçirilməsi Rusiya üçün həyati önəmə sahibdir. Rusiya ictimaiyyətində müharibə əleyhinə baxışlar günbəgün artır. Baxmutun ələ keçirilməsindən Kreml geniş şəkildə istifadə edəcək. Yevgeni Priqojin hər nə qədər Rusiya silahlı bölmələrinin Baxmutun mərkəzini ələ keçirdiyini açıqlasa da, mümkündür ki, bu, Ukrayna silahlı qüvvələrinin taktiki geri çəkilməsidir. Məsələ ondadır ki, Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı Valeri Zalujnı ilə Prezident Volodimir Zelenski arasında Baxmutla bağlı ciddi fikir ayrılığı var. Zelenski Baxmutun müdafiə edilməsini dəstəkləsə də, Zalujnı çəkilib daha ciddi müdafiə xəttinin qurulmasını təklif edirdi. Görünür, Zalujnı bu məsələdə Zelenskini razı sala bilib. Diqqətçəkən bir məqam da Baxmutun Valeri Zalujnı ilə Böyük Britaniya Müdafiə Qərargahının rəisi admiral Toni Radakin arasında telefon danışığından qısa müddət sonra ələ keçməsidir. Zalujnı Toni Radakla məhz cəbhəboyu əməliyyat vəziyyəti, həmçinin Baxmut istiqamətində döyüşləri müzakirə edib. Mümkündür ki, Böyük Britaniya Müdafiə Qərargahının rəisi də ukraynalı həmkarına Baxmutdan taktiki-strateji geri çəkilməyə dair məsləhət verib”.

**T.Rzayevə görə, hazırda Donbasda ən ağır döyüşlər Baxmut və Uqledar ətrafında gedir:** ”Baxmutun ruslar tərəfindən ələ keçirilməsi hücumların intensivliyini azalda bilər. Düzdür, Baxmutun tutulması ruslara Çasov Yar, Kramatorsk və Slavyanska çatmaq imkanı versə də, yorğun və ciddi itkilərə məruz qalan qoşunların bir müddət hücumlara fasilə verməsi ehtimal edilir. Mümkündür ki, ruslar Baxmutda müdafiə xəttini gücləndirib yeni hücumlar üçün hazırlıq işləri görəcək. Bu da öz növbəsində tərəflər arasında nisbi sakitliyin yaranmasına səbəb ola bilər. Kiyev rusların Baxmutdan sonra hücumlara fasilə verəcəyini bilir və məhz buna görə geri çəkilmə taktikasını seçdi. Ukrayna ordusu bu fasilədən həm müdafiə xəttinin gücləndirilməsi, həm də əks-hücum hazırlıqlarının görülməsi üçün istifadə edə bilər”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**



# Prezidentin qərarı alqışlandı

## Media subyektlərinin 3 il müddətinə mənfəət, gəlir və sadələşdirilmiş vergidən azad edilməsi inkişafa gətirib çıxaracaq

**Azərbaycan Prezidenti cənab İlham Əliyev ”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”nu təsdiq edib. Beləliklə, media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq maddi yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsinin isə əlavə dəyər vergisindən 3 il müddətinə azad olunur.**

*APA Media Qrupun baş direktoru Vüsalə Mahirqızının sözlərinə görə, media subyektlərinin 3 il müddətinə mənfəət, gəlir və sadələşdirilmiş vergidən azad edilməsi medianın inkişafı üçün ciddi addımdır.*

Baş direktor hesab edir ki, bu, medianın effektli fəaliyyəti və gələcək iqtisadi inkişafı üçün zəruri addımlardan biri idi: ”Media həmişə dövlətin diqqət mərkəzində olub. Dəfələrlə media subyektlərinin çətin iqtisadi vəziyyətində borcların sıfırlanması, ƏDV-dən azad edilmə kimi güzəştlər olub. Budəfəki addım isə medianın gələcək iqtisadi inkişafı, həmçinin bazar münasibətlərində sahibkarlıq subyektləri kimi formalaşması üçün böyük dəstəkdir. Medianın inkişafına göstərdiyi növbəti dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm”.

*V.Mahirqızı deyib ki, bu addım mediaya gələcəkdə uzunmüddətli kreditlər almaq şansı da yaradıb:* ”Medianın inkişafı və davamlılığı üçün güclü təhlükəsizlik, həmçinin texniki təminat çox vacibdir. Virtual dünyadakı informasiya müharibələri kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsini mütləqləşdirib. Bu cür tədbirlər isə öz növbəsində, az qala, hər gün yenilənən texniki vasitələr və proqram təminatları ilə mümkündür. Eyni zamanda medianın daha çevik, operativ və vizual effektli işləməsi üçün də müasir texniki təminata ehtiyac var. Yaxın gələcəkdə məhz media subyektlərinin maddi-texniki bazalarının gücləndirilməsi üçün uzunmüddətli və güzəştli şərtlərlə kreditlərin ayrılması ilə bağlı müzakirələr aparmaq olar. Vergi güzəştləri nəticəsində qalan vəsaitlər media subyektlərinə kreditləri ödəmək imkanı yaradır”.

”Teleqraf” Media Qrupunun rəhbəri, Əməkdar jurnalist Aynur Camalqızı isə hesab edir ki, Prezident İlham Əliyevin ”Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Qanunu”nu təsdiq etməsi media sahəsi üçün yeni nəfəsliyin açılması deməkdir: ”Qərara əsasən, media subyektlərinin öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlər, o cümlədən reklam gəlirləri, habelə Medianın İnkişafı Agentliyi tərəfindən verilən maddi yardımlar gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən 3 il müddətinə azad edilib. Media sahəsində illərdir çalışanlar üçün bu qərarın əhəmiyyəti olduqca böyükdür, çünki reklam bazarının istənilən səviyyədə olmaması və iqtisadi çətinliklərin mövcudluğu sirr deyil və bu, həmişə peşəkar fəaliyyətə problemlər yaradıb. Bu baxımdan, Prezidentin qərarını media üçün böyük dəstək və ”nəfəslik” olaraq dəyərləndirmək lazımdır:

- bu qərar iqtisadi imkanlarımızı genişləndirəcək.
- reklamdan gələn gəlirlərin artmasına şərait yaradacaq.
- jurnalistlərin əməkhaqlarının yüksəlməsini və həmişə ciddi problemlərdən biri olan əmək müqavilələrinin bağlanmasını stimullaşdıracaq.

Əlbəttə, reklam bazarının zəif olması media subyektlərinin böyümək, fəaliyyətini genişləndirmək baxımından imkanlarını məhdudlaşdırır, ciddi çətinliklərlə üz-üzə qoyur, eyni zamanda əməkdaşların layiq olduqları yüksək əməkhaqqı almasını çətinləşdirir. O cümlədən, yüksək gəlir əldə edə bilməyən media subyektlərinin əməkdaşları ilə rəsmi əmək müqaviləsi bağlaması da asan olmur. Çünki media subyektləri əməkhaqları və vergilərin verilməsi arasında çətin seçim qarşısında qalırlar.

Prezidentin bu qərarı məhz bu problemlərin böyük ölçüdə həllinə şərait yaradır. Bu qərar mediamızın inkişafı, maddi bazasının güclənməsinə xüsusi töhfədir”.

**A.Camalqızı bildirib ki, bu imkanları yaratdığı üçün media subyekti olaraq cənab Prezidentə təşəkkür edirik:** ”Prezident İlham Əliyevin media sahəsində həyata keçirdiyi islahatlar artıq öz bəhrəsini verir. Əminliklə bir daha bildirmək istəyirəm ki, bu qərarın da müsbət nəticəsini ictimaiyyət hiss edəcək”.

**Azad mətbuatın inkişafının daim dövlət siyasətinin əsasını təşkil etdiyini vurğulayan ”İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə isə deyib ki, imzaladığı Fərman və Sərəncamlarla, təsdiqlədiyi Qanunlarla jurnalistləri dostu, mətbuatın böyük hamisi kimi diqqətdə olan Prezident İlham Əliyev mətbuatın inkişafına daha geniş imkanlar açır, söz azadlığını yüksək səviyyədə təmin edir.** Onun sözlərinə görə, atılan addımlar, eyni zamanda dövlətin iqtisadi və maliyyə imkanlarının göstəricisidir. Hər bir mühüm addım keçilən yola nəzər salmağı, həmçinin bu fonda perspektivlərin təhlilini bir zərurət kimi qarşıya qoyur: ”Dövlət başçısı İlham Əliyev ”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununu təsdiq edib. Sənədə əsasən, media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər, reklam gəlirləri, habelə onlara verilən müvafiq maddi yardımlar gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi isə əlavə dəyər vergisindən azad olunur. Bu mühüm addım media subyektlərinin iqtisadi müstəqiliyinin daha da möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaq. Atılan addımlar tarixi Zəfəri ilə dünyaya səs salan Azərbaycan mediasının yeni reallıqlara uyğulaşdırılmasında, azad mətbuatın hərtərəfli inkişafında öz sözünü deyir. Dünyanın heç bir ölkəsində mətbuata bu səviyyədə diqqət və qayğı tendensiyasına rast gəlinmir. Ölkə Prezidentinin mətbuata qayğısının daha bir təzahürü olan bu mühüm addım media ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilərək böyük minnətdarlıq hissi ifadə olunur”.

**V.Rəhimzadənin sözlərinə görə, ölkə başçısının ”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununu təsdiq etməsi bu istiqamətdə medianın inkişafına növbəti dəyərli töhfədir:** ”Bir mətbu orqanın rəhbəri kimi medianın inkişafına göstərdiyi diqqət və qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə minnətdarlığımı bildirirəm. Mediamız müasir müstəqil, qalib Azərbaycanın dövlət maraqlarının qorunması, tarixi həqiqətlərimizin, möhkəm təmələ əsaslanan təkmil, yenilikləri, islahatları özündə ehtiva edən dövlət siyasətimizin uğurlarının təbliğində üzərinə düşən vəzifəni bundan sonra da həyata keçirmək istiqamətində fəaliyyətini davam etdirəcək”.

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Erməni təxribatları sülhə əngəl yaradır"

## Amerikalı politoloq: ”Qarabağda silahların daşınmasında rus sülhməramlılarının da rolu var”

**Dünyanın hazırkı mərhələsini ”qaynar qazan”la müqayisə etsək, yəqin ki, yanılmarıq. Sanki kimsə pultu əlində hazır saxlayıb. Və düyməyə bassa, hər şey yenilənəcək. Ayrı-ayrı regionlarda baş verən hadisələr, o cümlədən provokasiyalar, işğalçılıq siyasətləri və təhdid dolu bəyanatlar belə düşünməyə əsas verir.**

Regionumuzda və dünyada baş verən son proseslərlə bağlı ABŞ Dövlət Departamentinin keçmiş əməkdaşı, politoloq Paul Qoblla söhbətləşdik.

**- Ermənilər son günlər yenidən təxribatlara əl atırlar. Sizcə, davam edən təxribatların nəticəsi necə olacaq?**

- Əlbəttə, təxribatlar sülh perspektivinə əngəl yaradır. Tezliklə Cənubi Qafqazda gərginliyin artması mümkündür. Bu isə o deməkdir ki, eskalasiya ehtimalı da var. Hazırkı şəraitdə bunu heç vaxt istisna edə bilmərik.

**- Laçına gedən yolda qanuni və dinc aksiya ilə bağlı fikirləriniz bizim üçün maraqlıdır. Ermənilər iddia edirlər ki, biz Laçına gedən yolu bağlamışıq. Əgər belədirsə, necə olur ki, Xankəndiyə silah aparmağa çalışırlar?**

- Bu məsələni hər kəs müxtəlif qiymətləndirə bilər. Əsas məsələ ondan ibarətdir ki, Ermənistan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, kommunikasiya xətlərinin açılmasına mane olur. Laçın yolundakı aksiyalara qarşı çıxanlar bu öhdəliyin icra edilməsini təmin etməlidirlər. Əlbəttə, silahların daşınmasına dair məlumatlar dəqiqdirsə, burada rus sülhməramlılarının da rolu var.

**- Bildiyiniz kimi, Qarabağ erməniləri ilə Xocalıda görüş keçirildi. Bundan sonra onlar iki dəfə Bakıya dəvət olundular. Amma hələ ki, təklifimizə müsbət cavab verilməyib. Qarabağ ermənilərinin bu mövqeyini necə izah edərsiz?**

- Qarabağ erməniləri hələ Azərbaycana tam inanmırlar. Onlar digər vətəndaşlar üçün nəzərdə tutulmuş hüquq və vəzifələrdən yararlana biləcəklərinə şübhə edirlər. Fikrimcə, ermənilərin reinteqrasiyası ilə bağlı əsas baryer budur. Azərbaycanın səyləri, o cümlədən humanist addımları isə şübhəsiz ki, davam etməlidir. Rəsmi Bakıya Qarabağ ermənilərinə onların yanlış düşündüyünü və səhv yolda olduğunu göstərməlidir.



**- İran Ermənistanı dəstəkləməklə yanaşı, Azərbaycanla da diktə dilində danışmağa çalışır. Bu dövlətin Cənubi Qafqazda maraqları nədən ibarətdir? İrandakı aksiyalar nə ilə nəticələnəcək? Rejim dəyişikliyi gözlənilirmi?**

- İran Rusiyanın zəifləməsindən istifadə edib Cənubi Qafqazdakı təsirini gücləndirmək istəyir. İranın aqressiv davranışları da bu kontekstdən qiymətləndirilməlidir.

**- Rusiya ilə Ukrayna arasında müharibə bir ildən çoxdur davam edir. Döyüş meydanındakı vəziyyəti necə qiymətləndirirsiniz?**

- Ukrayna gözlənildiyindən daha güclü iradə ortaya qoydu. Lakin müharibə hələ bitməyib. Etiraf etmək lazımdır ki, Rusiyanın imkanları da hələ tükənməyib. Qərb Ukraynanı tam dəstəkləyərsə, bu dövlət uduzmayacaq. Amma Rusiyanın nələr tələb edəcəyi hələ bəlli deyil. Sülh isə yaxın gələcək üçün gözlənilmir.

**- Rusiya Prezidenti Vladimir Putin bir neçə dəfə nüvə silahından istifadə oluna biləcəyini deyib. Sizcə, bu, mümkündürmü?**

- Bəlkə də Putin gələcəkdə bu barədə əmr verə bilər. Yəni bu, mümkündür. Lakin icraçıların Kreml rəhbərinin bu əmrini yerinə yetirəcəklərinə ciddi şübhələrim var. Kremldəki fikir ayrılıqları onsuz da aydın hiss olunur. Sözsüz ki, Ukraynadakı müharibənin nəticələrinin qlobal əhəmiyyətli təsirləri olacaq. Savaş, həmçinin Cənubi Qafqazdakı duruma da təsir edəcək.

**- Bu günlərdə Rusiya Prezidenti Vladimir Putin Belarusda nüvə - taktiki silahının yerləşdiriləcəyini elan etdi. Necə düşünürsünüz, bu qərar nüvə eskalasiya riskini daha da artırmır?**

- Putin Çin lideri Si Cinpinlə uğursuz görüşündən sonra bu qərarı verdi. Yəqin o, göstərmək istəyir ki, hələ də gücü var və nələrsə edə bilər. Amma dediyim kimi, hətta əmr verilsə belə, nüvə silahının tətbiqinə dair şübhələrim var.

**Söhbətləşdi: Kənan Novruzov**

# Pandemiyanın təzahürü

## Son 3 ildə bəzi abituriyentlər imtahana üzərində kəsici-deşici vasitələrlə gəlir

**Dəfələrlə xəbərdarlıq olunmasına baxmayaraq, bu gün tələb olunan sənədləri özləri ilə gətirmədikləri üçün imtahana buraxılmayan abituriyentlər olub. Bu barədə Dövlət İmtahan Mərkəzinin yaydığı məlumatda bildirilir. Yoxlama prosesi zamanı bəzi abituriyentlərin üzərində kəsici-deşici vasitələr, müxtəlif elektron cihazlar və digər köməkçi vəsaitlər aşkar olunub. 8 nəfərdə mobil telefon tutulduğu üçün imtahandan xaric edilib və nəticələri ləğv olunacaq.**



*Kamran Əsədov: "İnternet resurslarda daha geniş yayılan məhz kriminal məzmunlu informasiyalar, kriminal avtoritetlər barədə məlumatlar, bayağı mahnılar, məzmununda zorakılıq daşıyan videolardır, şagirdlərin, məzunların üzərlərində kəsici-deşici alətlər gəzdirməsinin səbəbi anlaşılır"*



Həmin abituriyentlər qəbul imtahanının ikinci mərhələsinə də buraxılmayacaq. Qeyd olunan qayda pozuntuları protokollaşdırılıb və hazırda bunlarla bağlı araşdırma aparılır.

Təhsil problemləri üzrə ekspert, fəlsəfə doktoru Kamran Əsədov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, son 3 ildə belə hallar çox artıb və bu, təəssüf doğurur: ”Pandemiya mərhələsində şagirdlərin, ümumiyyətlə, təhsil alanların internet resurslardan istifadəsi artdı. Təhsil alanlar zamanlarının böyük qismini internet resurslarda keçirirdilər. Fənlərlə yanaşı, digər videoları, paylaşımları izləmək imkanları da olurdu. Nəzərə alsaq ki, internet resurslarda daha geniş yayılan məhz kriminal məzmunlu informasiyalar, kriminal avtoritetlər barədə məlumatlar, bayağı mahnılar, məzmununda zorakılıq daşıyan videolardır, şagirdlərin, məzunların üzərlərində kəsici-deşici alətlər gəzdirməsinin səbəbi anlaşılır. Ailədə uşaqlara nəzarət zəifdir, təhsilə də nəzarət yoxdur. Xatırladım ki, Novruz bayramı şənliyində Azərbaycan Neft və Sənaye Universiteti tələbələrinin kriminal avtoritetə həsr olunmuş mahnını bir ağızdan oxumaları və mahnının sədaları altında rəqs etmələri videosu yayılmışdı. Bu, əyləncə deyildi, biabırçılıq idi. Bir ali məktəb tələbələri ki kriminal avtoritetə həsr olunmuş mahnıya oynayır, təhsilimizin səviyyəsinin əlavə izaha ehtiyacı qalmır”.

**K.Əsədov qeyd etdi ki, DİM-in keçirdiyi sonuncu imtahan əvvəlki illərin və IX sinif məzunlarını əhatə edib:** ”Deməli, ötən il ərzində bu şagirdlər müsbət yöndə inkişaf etməyib. Təhsil aldıqları müddətdə necə idilərsə, hansı mühitin təsiri altında idilərsə, məktəbdən uzaqlaşdıqdan sonra da həmin mühitin övladları olaraq qalıblar. Səbəblər çox dərindir. Məktəblərdə şagirdlərlə əlavə iş aparılmır. Uşaqlar kriminal aləmin təsiri altında böyüyürlər. Və onlarda kriminallığa meyl artır. Yoxsa niyə abituriyent imtahana özüylə bıçaq gətirsin?! Ya da abituriyent imtahana niyə əlində təsbeh gəlir? Deməli, bu, bəzi yeniyetmə və gənclərin gündəlik həyat tərzinə çevrilib artıq, ondan kənarlaşa bilmirlər. İmtahana mobil telefon, qulaqcıq gətirənlər də olur. Bunlar imtahanda əlavə yardım vasitələrindən istifadəyə cəhddir. Kəsici-deşici alət hansı ”yardım” rolunu oynaya bilər ki, abituriyent onu özüylə imtahana gətirir?! Kriminallığa meyillilik təhlükəli hal almaqdadır, Təhsil Nazirliyi və digər aidiyyəti qurumlar bu barədə ciddi düşünməli, gərəkən addımları atmalıdırlar”.

**Məlahət Rzayeva**

# COVID peyvəndləri tromba səbəb ola bilməz



## Ürək tutmasından ölüm sayının artması hərəkətsizlik və stress faktoru ilə bağlıdır

**Pandemiya zamanı insanlara şiddətlə peyvənd olunmağı tövsiyə edən həkimlərin 3 ildən sonra vaksinlərlə bağlı neqativ iddiaları cəmiyyətdə ciddi narahatlıq doğurub. Xüsusən də ölkəmizdə son aylar qəfil ölümlərin və ürək tutmalarının gəncləşməsi fonunda vaksinlə bağlı deyilənlər əhalidə ciddi təşviş yaradıb.**

Belə ki, COVID-19 pandemiyasında tətbiq olunan peyvəndin qan laxtalanması və ürəktutmalarına səbəb olması ilə bağlı iddialar artıb. Sosial şəbəkələrdə yayılan iddialarda istifadəçilər peyvənddən sonra kəskin ürək ağrıları, ürək çırpıntılarının çoxalması, təngnəfəslik kimi hallardan şikayət edir və bu halların peyvənddən sonra yarandığını bildirir.

Türkiyəli professor Ender Saraç isə bu dəfə alman vaksinlərinin "turbo xərçəngə" səbəb olduğunu iddia edib.

Türkiyə TV-lərində yayımlanan sabah proqramlarının birində bu mövzuya toxunan Ender Saraç müayinə etdiyi xəstələrdə müşahidə etdiyi nüansları tamaşaçılarla bölüşüb. Bu yaxınlarda Azərbaycanda olduğunu qeyd edən professor gənc kişilərdə qan laxtalanması, infarkt, ürək aritimiyasının artmasının ciddi narahatlıq doğurduğunu deyib. Hətta COVID-19 dövründə tətbiq edilən "mRNA" peyvəndlərinin "turbo xərçəng" kimi ciddi bir xəstəliyə də səbəb olduğunu qeyd edib: "Son 1 ildə xüsusilə yeni nəsil peyvəndlərdən sonra infarkt və laxtalanma hallarında artım müşahidə olunur. "Qeyd etdiyimin "turbo xərçəngi" isə qəfildən meydana çıxan və son mərhələdə aşkarlandığı üçün qısa müddətdə ölümlə nəticələnən xəstəlikdir. Bu çox ciddi bir şeydir. Müayinə etdiyim xəstələrdən ilk alman peyvəndi olub-olmadıqlarını soruşuram". Əksəriyyət "bəli" deyir. Eyni şikayətlərlə bağlı bu qədər insanın müraciət etməsi təsadüfi deyil".

Qan laxtalanmasının artmasını biz qan analizlərində və hacamat edən zaman görürük. Qan qaralır və qatılaşır. Bu cür xəstələrə dərhal omega3 balıq yağı və kiçik bir dozada gündəlik 81-lik aspirin qəbul etməyi tövsiyə edirik. Qanı durulaşdırmaq, yəni emboliya və infarkt riskini azaltmaq üçün hacamat da həqiqətən çox işə yarayır. Mikrohissəcikləri təmizləmək üçün eyni zamanda bol su içmək, zəncəfil, zərdəçal kimi ədviyyatlardan istifadə etmək lazımdır. Lakin mütləq şəkildə Omega3 balıq yağı və bol-bol sarımsaq istehlak edilməlidir". Maraqlıdır, bu iddialar nə qədər doğru ola bilər?

**Kardioloq Emil Hasilov isə "Şərq"ə açıqlamasında deyib ki, COVID-19 peyvəndi ilə bağlı həmişə belə iddialar olub, amma heç birinin elmi əsası yoxdur:** "COVID peyvəndlərinin tromboza səbəb olduğuna dair bəzi "case"lər gördük, amma ümumilikdə bununla bağlı bir araşdırma və trial (çalışma) yoxdur".

Kardioloqun sözlərinə görə, ürək tutmasından ölümlərin sayının artmasında psixososial amillər və gənclər arasında zərərli vərdişlərin daha da artması, hərəkətsizlik və stress faktoru dayanır: "Sözsüz ki, ürək-damar sistemi xəstəliklərinin artmasına koronavirus pandemiyası da lazımi qədər təkan verdi. Təəssüf ki, yaşadığımız coğrafiyada hiperxolesterinemiya və irsi ürək xəstəliklərinə daha çox rast gəlinir. Əslində qəfil ölümlər əvvəllər də çox olub. Hazırda sosial media, kütləvi informasiya vasitələri həddindən artıq artıb deyə, bu halları hər kəs eşidir və görür".

Həkimin sözlərinə görə, irsiyyətində ürək xəstəliyi olan gənc və orta yaşlı insanlar vaxtında müayinədən keçməlidirlər. Amma insanlar buna məsuliyyətli yanaşmır. Atasında, anasında ürək xəstəliyi olan insanlar vaxtında profilaktik müayinə olunsalar, ən əzından qanda lipid (xolesterin) fraksiyalarını yoxlatdırsalar, arterial təzyiqlərini vaxtaşırı ölçdürsələr, problemlər daha erkən aşkarlanar və qarşısı alına bilər.

*İnfeksionist Mərdan Əliyev isə hesab edir ki, peyvənd dozası azaldılan viruslardır, insan orqanizminə yeridilir, bundan sonra həmin virusa qarşı bədəndə immunitet əmələ gəlir:* "Düşünürəm ki, bu tip iddialar yalandır. Peyvənd qoruma xarakteri daşıyır. O ki qaldı ürək-damar sistemindəki xəstəliklərə və qəfil ölüm hallarına, bunun səbəbləri hərəkətsizlik, oturaq həyat tərzi, trans yağların istifadəsi, şirniyyatlardan çox istifadədir. Hansı ki, bu sadaladıqlarım qanda xolesterenin yüksək olmasına gətirib çıxarır. Bu da öz növbəsində ürək-damar sistemini zədələyir. Ona görə də ürək-damar xəstəliklərinin səbəbini peyvəndlərdə axtarmaq doğru deyil".

İnfeksionistin sözlərinə görə, koronavirus peyvəndinin ürək-damar sistemini zədələməsi ilə bağlı elmi araşdırma olmadığı kimi, zədələmədiyi haqda da məlumat yoxdur.

**Şəymən**

# İtirən kasıblar olacaq

## Daha ölkəyə köhnə avtomobillər gətirilməyəcək



**Azərbaycana yaşı 10 ildən çox olan minik avtomobillərinin gətirilməsi dayandırılır. Bununla bağlı qərarı Baş nazir Əli Əsədov imzalayıb.**

Qərara əsasən, zavod buraxılış tarixinə görə yaşı 10 ildən çox olan minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) Azərbaycan ərazisinə gətirilməsi məhdudlaşdırılacaq. Sözügedən qərar sosial şəbəkə istifadəçilərinin müzakirə predmetinə çevrilib.

**"Şərq" xəbər verir ki, jurnalist Vüsal Məmmədov qərarın düzgün olduğunu söyləyir:** "Söhbət təkcə ekologiyadan da getmir, faktiki Azərbaycan inkişaf etmiş ölkələrin maşın zibilxanasına çevrilirdi. Qarşısının alınması yaxşıdır. Amma digər tərəfdən, yaşı 10 ildən az olan maşınlar da bahalıdır və çoxlarının cibinə görə deyil. Kredit şərtləri isə "dişləyir". Optimal çıxış yolu avtomobil kreditləşməsi sahəsində də məntiqli bir vəziyyətin yaradılması olardı. Məsələnin üzərində işləmək lazımdır".

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov isə onun fikri ilə razılaşmayıb. S.Məmmədovun qənaətincə, təzə avtomobillər idxal rüsumunun yüksək olması səbəbindən satılmır. Ona görə belə yola əl atılır:** "Azərbaycanda 2000-ci ilin əvvəllərində avtomobil gətirməyə heç bir məhdudiyyət yox idi. İstəsən 50 ilin avtomobilini gətir. Amma o zaman Cənubi Qafqazın ən yeni avtomobil parkı Azərbaycanda idi. Sonradan daxili istehsal olmadan idxal rüsumları dəfələrlə artırıldı. O zaman ölkəyə "xlam" axını başladı. İndi Azərbaycan Cənubi Qafqazın avtomobil zibilxanasıdır. Nə var 10-15 milyon vergi toplayırlar. Digər tərəfdən, ətraf mühitə, yol infrastrukturuna ən azı 10 dəfə çox ziyan dəyir. Hibrid avtomobillərin atılan akkumulyatoronun ətraf mühitə vurduğu ziyan 50 ilin dizel avtomobilinin ziyanından 100 dəfə çoxdur. Bu, avtomobil satanların lobbi fəaliyyətinin nəticəsində qəbul olunan qərardı. Arada itirən bir qrup kasıb təbəqə olacaq".

**Aygün Tahir**



# Yay aylarında Türkiyədə inflyasiya azalmaqda davam edəcək

## Ancaq AKP hökuməti seçkiləri uduzsa, bir müddət birjalarda çalxalanmalar olacaq

**Türkiyədə illik inflyasiya beş aydır azalmaqda davam edir.**

Türkiyə Statistika Təşkilatı (TÜİK) xəbər verir ki, mart ayında inflyasiya 50,51 faizə kimi azalıb. Ötən ay bu rəqəm 55,18 faiz təşkil etmişdi.

İstehlak qiymətləri indeksi aylıq 2,29 faiz, istehsal qiymətləri isə 62,45 faiz artıb. Qeyd edilib ki, istehsal qiymətlərində artım son 16 ayda ən aşağı səviyyəyə düşüb.

Xatırladaq ki, Türkiyədə inflyasiya ötən ilin oktyabrında son 24 ilin ən yüksək səviyyəsinə - 85,5 faizə çatmışdı, ötən ilin sonundan etibarən isə tədricən azalmağa başlayıb.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Türkiyədə inflyasiyanın düşməsinin başlıca səbəbi keçən il son 30 illikdəki ən yüksək inflyasiya artımının olmasıdır:** "Ötən il qiymətlər olduqca yüksələrək maksimum dərəcəyə çatmışdı. Bu il eyni tempdə yüksəlmə mümkünsüz idi. Qiyməti müəyyən bir səviyyəyə qədər yüksəldə bilərsiz".

Ekspert vurğulayıb ki, inflyasiya dəyişmələri insanların alıcılıq qabiliyyəti nəzərə alınaraq edilir: "İnflyasiyada aşağı enmələr baş verməsəydi, iqtisadi aktivlik, ticarət dövriyyəsi aşağı düşəcəkdi. Türkiyədə inflyasiya göstəricisi ötən il kəskin şəkildə yüksəldiyi üçün bu il sadəcə ötən ilə nisbətdə azalıb".

**N.Cəfərli həmçinin qeyd edib ki, Türkiyə hökuməti seçkilərqabağı inflyasiyanın cilovlanmasını özlərinə başlıca məqsəd olaraq təyin etmişdilər:** "Türkiyə xalqının ən çox önəm verdiyi məsələ məhz ölkədəki inflyasiya dərəcəsidir. Ona görə də yanvar ayından başlayaraq Türkiyə hökuməti tərəfindən bu məsələ ilə bağlı müəyyən qərarlar alındı. Kreditləşmə faizləri, ölkə iqtisadiyyatının yüksəlməsi üçün büdcə ayırmaları, əməkhaqlarının və təqaüdlərin artırılması ilə və s. bəzi məsələlərdə ciddi addımlar atıldı".

"Seçkilərdən sonra inflyasiyanın yenidən artması ilə bağlı gözləntilər də mümkündür. Bu ehtimal o zaman ola bilər ki, AKP hökuməti həm prezident, həm də parlament seçkilərini uduzsa, bir müddət birjalarda çalxalanmalar olacaq. Türk lirəsinin dəyərdən düşməsi baş verə bilər. Yay aylarında yerli məhsullar bazara daha çox çıxır və idxal azalır. Həmçinin turizm mövsümünün açılması ilə birlikdə ölkəyə daha çox valyutanın daxil olması gözlənilir. Bu faktorları nəzərə aldıqda yay aylarında Türkiyədə inflyasiya azalmalarının davam etdiyini görə bilərik", - deyə ekspert bildirib.

**Nihad Kərimli.**

# Bəzən QHT-lər sığınacaq açmaq istəyir

## Mehriban Zeynalova: "Dəfələrlə təklif etmişəm ki, oğlan uşaqları üçün sığınacaqlar bu gün əsas tələbatlardan biridir və açılmalıdır"

**Uşaq evinin sakininin Psixiatriya Xəstəxanasına yerləşdirilməsinin ardından intihara cəhd xəbərinin də yayılması cəmiyyətdə ajiotaj yaradıb. Uşağın kimin əli və ya vasitəçiliyi ilə xəstəxanaya yerləşdirildiyi hələ də müəmmalıdır.**

Cəmiyyətin kəskin reaksiyasına səbəb olan da budur ki, uşaqda psixi pozğunluqlar vardısa, niyə o, indiyədək xəstəxanaya yerləşdirilməmişdi? Və necə oldu ki, o, sakini olduğu müəssisə barədə məhz tənqidi sözlər dedikdən sonra "xəstəxanalıq oldu"? Cəmiyyətin etirazı tamamilə anlaşılandır. Rəsmi qurumlar isə vərdişlərini yenə də davam etdirir, "konfedensiallığın qorunması" prinsipindən sui-istifadə edərək məlumat məhdudiyyəti tətbiq edirlər. Baxmayaraq ki, az qala, bütün dövlət qurumları nəzdində ictimai şuralar yaradılıb və deyilənə görə, fəaliyyətdədirlər, hər hansı "ÇP" baş verəndə ictimai şura üzvləri - demək ki, cəmiyyət yenə kənarda saxlanılır.

**Əvvəlcə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatına baxaq:** "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 1 nömrəli Respublika Psixiatriya Xəstəxanasının rəhbərliyi, eləcə də M.Hacıyevin həkimi ilə mövcud vəziyyət və diaqnoz barədə müvafiq danışıqlar aparılıb. Bununla yanaşı, M.Hacıyevin qardaşı Əli Hacıyev Komitəyə dəvət olunaraq məsələ ilə bağlı, eləcə də, Ə.Hacıyevin də vaxtilə həmin müəssisənin məzunu olduğu nəzərə alınaraq müəssisənin fəaliyyəti barədə söhbətlər aparılıb. Məlumat üçün bildiririk ki, 3 saylı uşaq evinin yeniyetmə sakini öz qardaşının razılığı ilə 1 saylı Respublika Psixiatriya Xəstəxanasına yerləşdirilib və hazırda müalicə alır. Klinikaya yatırılması haqqında qərar hər iki qohumlarının onun psixi vəziyyəti ilə bağlı fikirləri, tibb kitabcasındakı müalicə tarixcəsi, həmçinin müvafiq sahənin mütəxəssisi tərəfindən (kənardan dəvət olunmuş) yeniyetmənin özünün yoxlanılmasından sonra qısamüddətli müalicə alması üçün verilib. Müalicədən sonra yeniyetmənin qardaşı onu öz himayəsinə götürməsi ilə bağlı artıq müraciət edib. Vaxtilə uşağı himayəyə götürən ailə və 3 saylı uşaq evi ilə əlaqə saxlanılaraq mövzu barədə söhbət aparılıb. Qeyd edək ki, mövzunun həssaslığı nəzərə alınmaqla konfidensiallığın qorunması məqsədilə ictimaiyyətin məlumatlandırılmasında müəyyən məhdudiyyətlərin tətbiq edilməsi zəruridir".

**"Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında mövcud vəziyyət və çıxış yolları barədə danışdı:**

- Görünən odur ki, çətin tərbiyə alan, davranış pozuntusu olan uşaqlar üçün xüsusi metodologiyaya söykənən müəssisəyə ehtiyac var. Belə müəssisə, həmin uşaqların reabilitasiyası üçün ixtisaslaşmalıdır. Bir neçə il əvvəl Makarenkonun əsərlərinə baxdım. Həmin metodologiyada uşağın əmək, məşğulluqla reabilitasiyası - hər saat dəqiqliklə icra edilməklə, ciddi şəkildə həyata keçirilir. Bu, müasir tələblərə (insan haqları baxımından) indi nisbətən zidd metodologiya hesab edilsə də, o zaman çox effektli təsirə malik olub. Bəzən QHT-lər sığınacaq açmaq istəyir. Dəfələrlə təklif etmişəm ki, oğlan uşaqları üçün sığınacaqlar bu gün əsas tələbatlardan biridir və açılmalıdır. Əgər kimsə buna cürət etsə, mən öz bildiklərimi bölüşərdim. Amma ən yaxşısı, beynəlxalq təcrübəni öyrənib açsalar, effektiv olar.

**M.Zeynalova qeyd etdi ki, həmin uşaqla bağlı tələsik populist çıxış tərəfdarı deyil. Ələlxüsüs da əgər ortada insan faktoru varsa:**

- Uşaqla bağlı aldığım məlumatlarda eyni məsələ qeyd edilir. Hətta qohumları belə onun müalicəsindən sonra qəbul etməyə hazır olduqlarını bildiriblər. Bir məsələni qeyd edim ki, psixiatrik dispanserə yerləşdirilmək asan məsələ deyil. Praktikada özüm üzləşdiyim hallar olub ki, aqressiv və təhlükəli davranışı olan şəxslərlə bağlı briqada çağırsam da, yerləşdirə bilməmişik. Çünki həkim konkret deyib ki, bu, xəstəxanalıq deyil. Bu məsələdə gördüklərimdən dolayı tərəddüddə olmuşam. Yəni bildirmək istəyirəm ki, xəstəxanaya yerləşdirmək üçün öncə diaqnozu qoyan həkimlər gəlir, təklikdə danışır (müdaxiləyə imkan vermir) sonra bildirir ki, bu adamı aparmaq olar, ya yox. Hazırkı durumda da düşünürəm ki, həkim-psixiatr münasibət bildirsə, daha əsaslı olar. Mən uşağın səlis danışığını əsas gətirənləri başa düşürəm. Çünki bir çox böyüklərdən fərqli olaraq olduqca səlis və inandırıcı, əsaslandırılmış danışığı ictimaiyyətdə fikir yaradır ki, uşaqda heç bir problem yoxdur. Bu məsələdə mütəxəssis psixiatrlar rəy versə yaxşı olar. Bu, elə məsələdir ki, uşağı görməyincə, müstəqil psixiatr yanında olmayınca dəqiq diaqnoz vermək olmur. Uşağın davranışları təhlükəli deyilsə, psixiatriya xəstəxanasına yerləşdirmək lazım deyil, onunla xüsusi metodologiya ilə davranılmalıdır.




*"Əgər kimsə buna cürət etsə, mən öz bildiklərimi bölüşərdim. Amma ən yaxşısı, beynəlxalq təcrübəni öyrənib açsalar, effektiv olar"*

*Qeyd edək ki, cəmiyyətin kəskin reaksiya verməsinə səbəb müəssisə müdirinin uşaq barədə xoşagəlməz ifadələr işlətməsi olub. Baş vermiş hadisəyə münasibət bildirən ictimaiyyət nümayəndələri "Direktor xanım iddia edir uşaq içki içir, davranış problemi var. Ruhi xəstə deyil, heç kimi döyməyib, cəmiyyət üçün təhlükə yaratmırsa niyə ruhi dispanser? Çətin tərbiyə olunan uşaqlar üçün müəssisə yoxdur?" təpkisi verir. Hər davranış pozğunluğu olanı dəlixanaya salsalar, bayırda adam qalmaz. Əgər həqiqətən uşağın psixi problemləri vardısa, bu, indiyədək aydınlaşmalı və o, müvafiq müəssisəyə yerləşdirilməliydi: "Söhbət həmin uşağın problemindən getmir. Söhbət uşağın xəstəliyinin gizlədilməsindən (əgər həqiqətən xəstədirsə) gedir. Ola bilsin, onu müəssisədə saxlayıb, say artırırdılar. Uşaq paxırlarını açdı, onlar da belə etdilər. Həmin müəssisənin rəhbəri dərhal dəyişdirilməlidir. Nə oldu, indiyə qədər bu uşaq ağıllı idi, videonu çəkəndən sonra psixoloji durumu zəif oldu? İndi aşkarlandı? İndi ?zlərinə toxunduğu üçün xəstəxanaya göndərirlər? Suallar çoxdur". İctimaiyyət, uşağın həyatı ilə oynanılmasından, hətta uşağa gərəksiz olduğu halda psixotrop iynələrin vurulacağından, dərman preparatlarından lüzumsuz halda istifadə ediləcəyindən də narahatdır və dəqiq araşdırılma tələb edir.*

**Mələhət Rzayeva**

**Elanlar**

Məhərrəmov Məmməd Vidadi oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Texniki Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Rabitə və Nəqliyyat Kollecinin Nəqliyyat şöbəsinin 1-ci kurs tələbəsi Rəhimov Məhəmməd Zaur oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 196 saylı ünvandakı 3159 saylı məhəllədə yerləşən çoxmərtəbəli yaşayış binası "ŞAZİ" MMC tərəfindən inşa edilən, Rəhimov Kərim Pənah oğluna məxsus, həmin binanın 4 girişində, 13 mərtəbəsində, ümumi sahəsi 124 kv.m. olan, 3 otaqlı, 399 saylı mənzilin müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Kiçik həcmli gəmilər üzrə dövlət müfəttişliyi, Bakı şəhəri, M.Qaşqay küçəsi, ev 112, Zeynalov Vidadi Zeynal oğluna məxsus texniki talon AA № 10042 və gəmi bileti AA № 01577 itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Mələhət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 848



## Yeni rekord qırıldı

İdmançı 81 tonluq qatarı çəkdi



**Avstriyalı idmançının sevincinin hədd-hüdudu yoxdur. O, heç kimin bacarmadığını edib.**

İdmançı çətin qırılan rekorda imza atıb. Franz Mulner 81 tonluq qatarı təxminən 11 metr irəli çəkə bilib. Qeyd edək ki, Mulnerin 50-dən çox dünya rekordu var, lakin sonuncu rekordunun çox çətin olduğunu söyləyib: "Bu günə qədər qırdığım rekordlarda ən çətin olanı bu idi. Relslərin üzərində mən vaqonu çəkərkən sanki bir yandan da o da məni çəkir kimi hiss etdim".

Avstriyalı idmançının bu rekordu əslində böyük bir layihənin parçasıdır. Mulner yeni qitədə helikopter və gəmi də çəkəcək. 2025-ci ildə rekord turnesinin son dayanacağı isə Afirka olacaq.

**Turan**

## Başqasının şarj alətindən istifadə etməyin!



**Çox vaxt insanlar başqalarının şarj alətindən istifadə edir.**

Sherg.az lent.az-a istinadən bildirir ki, bu cihazı təhlükə altına sala bilər.

Bu zaman smartfonunuzda saxlanılan bütün həssas məlumatlara giriş əldə oluna bilər.

Bununla yanaşı, saxta şarj cihazları telefonunuza ziyan vura, batareyanı sıradan çıxara bilər. Digər insanların cihazları ictimai Wi-Fi şəbəkələri ilə birlikdə hər cür fırıldaqçılar və hakerlərə smartfona giriş imkanı da yarada bilər.

*Qeyd edək ki, ictimai yerlərdə olan USB stansiyalarından istifadə etməkdə məsləhət deyil.*

## Şakira oğullarını da götürüb getdi



**Məşhur müğənni Şakira övladları ilə birgə Barselonanı tərk edib.**

**Axşam.az xəbər verir ki, bu barədə ifaçı sosial media hesabında yazıb. O, Barselona ilə bağlı xatirələrinə görə təşəkkürünü bildirib və oradan köçdüyünü yazıb. Bundan başqa, ölkə mediası da Şakiranın oğulları ilə birgə Barselona hava limanında görüntüləndiyi barədə məlumat yayıb.**

***Qeyd edək ki, Şakira xəyanətə uğradıqdan sonra ekssevgilisi, "Barselona"nın keçmiş müdafiəçisi Jerar Pikedən ayrılıb. İkili 11 il münasibətdə olub. Onların iki oğul övladı var - 9 yaşlı Milan və 7 yaşlı Saşa. Hazırda Pikenin sevgilisi Klara Çianın hamilə olduğu deyilir.***

## "Camdaki kız" finala hazırlaşır



**"Kanal D"də yayımlanan "Camdaki kız" serialı finala hazırlaşır.**

**Axşam.az xəbər verir ki, bu haqda ekran işində Muzo obrazını canlandıran aktyor Enis Arıkan jurnalistlərə açıqlamasında deyib. Dostları ilə birlikdə şam yeməyinə yollanan aktyor restorandan çıxarkən obyektivlərə tuş gəlib.**

**Sualları cavablandıran Arıkan serialla bağlı "Yavaş-yavaş sonuna gəldik. Möhtəşəm bir yaradıcı heyətlə uzun müddətdir çalışırıq. Yaxşı günlər keçirtdik. Çox gözəl dostlar qazandım" sözləri söyləyib.**

## Milla 8 yaşlı qızının fotolarını paylaşdı




**Aktrisa, model Milla Yovoviç ad günü olan ortancıl qızının fotolarını paylaşıb. Deşillin səkkiz yaşı tamam olub.**

**Oxu.az xəbər verir ki, "Şirin, mehriban, diqqətli və ən sevimli qızım Deşin 8 yaşını təbrik edirəm! O, həqiqətən də ailəmizin dayağıdır", - ulduz yazıb.**

**Qeyd edək ki, aktrisanın "Resident Evil" filminin çəkiliş meydançasında tanış olduğu ingilis rejissor Pol Andersondan üç övladı var. Cütlük Deşilldən başqa 15 yaşlı Ever və 3 yaşlı Oşini də böyüdür.**

## Ancelina Coli karyerasına son qoyur



**Hollivud ulduzu Ancelina Colinin aktrisalıq karyerasına son qoyacağı iddia edilir.**

**Lent.az xəbər verir ki, karyerasının son dövrlərində iştirak etdiyi layihələrdə seçici olan 47 yaşlı Coli aktrisalığı tərk edəcək. Məsələ ilə bağlı Ancelina hələlik bir açıqlama verməyib. Ancaq onun tezliklə bunu açıqlayacağı gözlənilir.**

***Qeyd edək ki, aktrisa geyim və zinət əşyaları ilə bağlı "Atelier Jolie" adlı brend çıxarmaq üzərində işləyir. Coli on ildən artıqdır ki, bu layihə üçün çalışır.***




# Unudulmayan Kayahan

"Xəstəliyini ilk dəfə öyrəndiyində həkim ona demişdi ki, 6 ay ömrün var"

**Dillərdən düşməyən mahnıların müəllifi və ifaçısı Kayahanın vəfatından 8 il keçir. Kayahan Açar 1949-cu ildə İzmirdə dünyaya gəlib. Atası Süleyman Açar zabit olub və Firuzan xanımla evlənib. Bu evlilikdən oğulları dünyaya gəlib, adını Kayahan qoyublar. Kayahanın uşaq vaxtından musiqiyə həvəsi olub. İlk təhsilini Qarsda, Fevzi Çakmaq məktəbində alıb. Atası tez-tez fərqli bölgələrə göndərildiyindən Kayahan da ölkəni diyar-diyar gəzib. Gənclik illəri Ankarada keçib.**

1973-cü ildə Nur adlı xanımla evlənib. Qız övladları dünyaya gəlib. Lakin 1991-ci ildə cütlük ayrılıb. Kayahan İstanbulda professional musiqi dərsləri alıb. Musiqi aləminə gəlişi 1971-ci ildə "Yosun gözlü sevgilim - Bir məktubun var" mahnı albomuyla başlayıb. 1978-ci ildə "Avroviziya" yarışmasına qatılan Türkiyə üçün mahnı bəstələyib. 1980-ci ildə 45 bəstədən ibarət "Gözlə, Gülüm - Atəş" adlı mahnı albomunu təqdim edib. Səsləndirdiyi bütün mahnıların müəllifi Kayahanın özüdür. Onun mahnılarını Sezen Aksu, Zərrin Özər, Bilgen Bengü, Nilufər kimi türk pop "ulduzlar"ı səsləndirib. Onun "Gecələr", "Qan dənələri", "Əsmər günlər" mahnıları türk pop musiqisinin şedevrləri hesab edilir. Sənətçi "Gecələr" mahnısına görə 1986-cı ildə "Qızıl Portağal" mükafatına layiq görülüb. Sənətçi TRT Musiqi kanalında uşaqlar üçün "Şənbədən şənbəyə" adlı proqram hazırlayıb və aparıcı olub. 1991-ci ildə "Yemin ettim" albomunu təqdim edib. Kayahanın həyat yoldaşı İpək Açar sənətçinin xəstəliyini necə qarşılamasından danışıb: "Xəstəliyini ilk dəfə öyrəndiyində həkim ona demişdi ki, 6 ay ömrün var. Ağlına ilk gələn bu oldu ki, elə bir mahnı yazsın ki, öldükdən sonra da onu bu mahnıyla daim xatırlasınlar. "Yemin ettim" mahnısı belə bir mahnı oldu. Kayahan "mən bu mahnını can ağrısyla yazmışam", deyirdi. Amma Allah ömür verdi, ondan sonra da daha neçə-neçə gözəl əsərlər yazdı. 1992-ci ildə "Otaqlarda işıqsızam" mahnı albomu ərsəyə gəldi. Həmin il sənətçi 29 oktyabr Cümhuriyyət Bayramında Ankara Qızıl Ay Meydanında böyük konsert verib. 1996-cı ildə isə "Allah kimsəni sevgisiz qoymasın" şüarı ilə "Canımın yarpaqları" adlı albomu tərtib edib. Sənətçi daha iki dəfə də evlənib, qızı Əsli Könül 2000-ci ildə dünyaya gəlib. 2004-cü ildə yenə xərçəng xəstəliyinə tutulub, müalicə alıb, bir müddət yaxşılaşıb, 2014-cü ildə təkrar vəziyyəti ağırlaşıb,



2015-ci ili aprelin 3-də sənətçi vəfat edib. Sənətçinin inanclı biri olduğu da məlumdur. "Ölüm cəza deyil, məncə, məzuniyyətdir", söyləyən Kayahan verdiyi müsahibələrin birində belə deyib: "Cənabi-Allahın qatına çıxacaqsınız, orada hesab verəcəksiniz. Buradakı dünyanın yalan olduğunu əgər düşünsəniz, hüzur özü gəlib sizi tapacaq". Kayahan milyonlarla sevənin göz yaşları ilə Kanlıca Mehrimah Sultan məzarlığında dəfn edilib.

**Məlahət Rzayeva**



# Tək arzusu var

Milyoner təqaüdçü boşanmaq istəyir

**Uzun illər xarici ölkədə çalışıb, nəhayət təqaüdə çıxdıqdan sonra Vətəninə dönən Mustafa Göktaşın yeganə arzusu boşanmaqdır. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, 86 yaşlı Mustafa Göktaş Adananın Kozan bölgəsində yaşayır. M.Göktaş 11 il əvvəl qonşularının vasitəsilə bir xanımla tanış olaraq evlənib.**



Nevin adlı xanım il yarım əvvəl M.Göktaşı tərk edərək evdən gedib. Onun başqa biriylə yaşadığı deyilir. Amma məsələ burasındadır ki, evdən gedən xanım rəsmi həyat yoldaşından hələ də boşanmayıb. M.Göktaş evləndiyi qadından illərlə zorakılıq gördüyünü deyib: "Onunla evləndim. Evlənməz olaydım! 11 il mənə zorakılıq etdi, qohumları evimdə illərlə kirayə haqqı ödəmədən qaldılar. Onların ucbatından 1 milyon TL pul itirdim", söyləyən M.Göktaş həyat hekayəsini də anladıb. M.Göktaş 25 il Avropada yaşayıb, çalışıb. Birinci həyat yoldaşı Hüsnə Göktaş xərçəng xəstəliyinə tutulub. Xanımı vəfat etdikdən sonra M.Göktaş Vətənə dönüb. Məmləkətinə fayda verməyə çalışıb. Un fabriki, yanacaqdoldurma məntəqəsi açıb, Kozanda məhəllə cameəsinə yardım edib. Qonşuları tək qalmasın deyə ona evlənmək təklif ediblər. "Nevin xanımın 50 yaşı vardı, mənimsə 75. Yaş fərqimiz böyükdür, dedim, evlənmək istəmədim. Qonşular israr etdi, araya girənlər oldu, Nevin də "sənə qulluq edəcəyəm", dedi. Evləndikdən sonra Mustafa dədənin qara günləri başlayıb. Nevin xanım ərinin mülklərini öz adına sənədləşdirib. M.Göktaşın evlərinin hərəsində Nevin xanımın bir qohumu yerləşib, kirayə də ödəməyiblər. M.Göktaş göz yaşları içində bunları anladıb: "Mənim 1 milyon pulum getdi. İndi ayrılmaq, boşanmaq istəyirəm. "Boşanmayacam", deyir. Gözləyir ki, mən ölüm, malım, mülküm, hamısı ona qalsın. Nə qədər var-dövlətim vardısa, bu 11 ildə hamısı yeyib-bitirdi. Yeganə istəyim ölmədən əvvəl ondan boşanmaqdır. İl yarımdır buna çalışıram. 5 məhkəmə iclası olub. Bir qərar verməyiblər. Qadına şiddətdən danışır hamı. Mənə qarşı edilənlər şiddət deyilmi? Mən 86 yaşındayam, qaçıb getdiyi adam 45 yaşında. Hara gedirsə getsin. Məndən əl çəksin. Başqasıyla yaşayır, məndən boşansın".

**Məlahət**

## Qanı təmizləyir

Qulançarın kalorisi az olsa da, insan orqanizmi üçün ağlagəlməz dərəcədə xeyirlidir



**4000 il bundan əvvəl qədim Misirdə, daha sonra isə qədim Romada məlum olan qulançar (lat. Asparagus) Azərbaycanın bəzi bölgələrində quşqonmaz və mərəcüyüd kimi də tanınır.**

Avropa ölkələrində, Çin və Amerikada geniş surətdə yetişdirilir, qida və dərman bitkisi kimi istifadə edilir. Fizioterapevt Ramin Quliyevin sözlərinə görə, sözügedən bitkinin Azərbaycanda 9 növü bitir: "Kür və Araz çaylarının ətrafında, boş və nəmli torpaqlarda geniş yayılıb.

Qulançarın kalorisi az olsa da, insan orqanizmi üçün ağlagəlməz dərəcədə xeyirlidir. Antioksidant kimi təsir edir, cinsi istəyi artırır. Qan damarlarını gücləndirir. Qanı təmizləyir. Ürək xəstəliklərində risk faktoru olan homosisteinin nəzarətinə kömək edir, ürəyi gücləndirir.

Hüceyrələri zədələnməkdən qoruyan güclü antioksidantdır.

Sümük əriməsini azaldır. Daha çox yaşlı insanlarda olan bu xəstəlik zamanı insanların sümüyü zəifləyir, sərtliyini itirir, yeyilir. Güclü sidikqovucudur. Bədəndə olan şişlərin çəkilməsində təsirlidir. Orqanizmdə yığılan artıq suların xaric edilməsinə kömək edir. Bu yolla qanı təmizləyir. Böyrəklərin fəaliyyətini yaxşılaşdırır və böyrək daşlarının təmizlənməsinə kömək edir. Həzmi asanlaşdırır. Qaraciyərə yaxşı təsir edir. Dərini təravətləndirir, sızanaqları azaldır. Zehni yorğunluğu aradan qaldırır. Sinirləri sakitləşdirir. İştah açır. Yağ hüceyrələrindəki qlükozanın istehsalını artıraraq insulinin təsirini yaxşılaşdırır.

Daha çox yaz aylarında yeyilən bu bitki A, B1, B2, C vitaminləri, protein və minerallarla zəngindir".

**Şəymən Bayramova**

## Yol kənarındakı evlərin qiyməti düşəcək

Yeni tədqiqat gələcək ekoloji siyasətə təsir edə bilər



**Avtomobillərin yaratdığı səs-küylü yolların yaxınlığında yaşayan insanların qan təzyiqi daha yüksək olur.**

Leicester Universitetinin tədqiqatçıları səs-küylü yol hərəkəti ilə hipertoniya riskinin artması arasında əlaqə tapıblar.

Yeni tədqiqat gələcək ekoloji siyasətə təsir edə bilər.

Tədqiqatçılar hipertansiyonu olmayan 40-69 yaş arası 240 mindən çox insanın məlumatlarını təhlil ediblər. (Saglamolun.Az) Məlum olub ki, yol hərəkətinin səs-küyünə yaxın yaşayan insanlarda hipertoniyaya daha çox rast gəlinir. Səs-küyün yaxınlıq-uzaqlıq, çox və ya az olması da mühüm hesab edilir.

Leicester Ətraf Mühitin Sağlamlığı və Davamlılıq Mərkəzinin 8 illik izləməsinə əsaslanan araşdırma Böyük Britaniyada uzunmüddətli trafik səs-küyünün hipertoniyaya təsirini birbaşa araşdıran ilk araşdırma hesab edilir.